Ələsgər Həsənli

TANIMAQ İSTƏSƏN

(şeirlər)

BİLİK
Qürurumuz müştəri məmnuniyyətidir...

Bakı – 2012

Redaktor: **Rafiq Oday**

Ələsgər Həsənli
Tanımaq istəsən
Sumqayıt, «Bilik» nəşriyyatı, 2012-ci il, 144 səhifə.

«Tanımaq istəsən» AYB-nin üzvü, şair Ələsgər Həsənlinin «Qəlbdən doğan ehtiyac» («Qınama məni Vətən»), «Yaddaşdan yaddaşa», «Tale yazısı», «Çəməndə gəzən Çiçək» adlı şeir kitablarından sonra oxucularla növbəti görüşüdür.

Kitaba müəllifin müxtəlif illərdə qələmə aldığı müxtəlif səpgili şeirləri daxil edilmişdir. İnanırıq ki, şairin bu kitabı da şeirsevər oxucular tərəfindən maraqla qarşılanacaqdır.

$$D\frac{525000-141}{191-09}M$$

© «Bilik» nəşriyyatı, 2012.

ÖN SÖZ ƏVƏZİ

Könül, bu dünyadı, qalmaqalı var,
Yol var düzdən keçir, yol var qayadan.
Ömrün gethagedi, qalhaqalı var,
Kimi yatan olur, kimi oyadan.

Həyatın işləri oyun-oyuncaq,
Bəzən o aqili cahil eyləyir.
Kimini göz üstə bəsləyir, ancaq,
Kimini döndərib əlil eyləyir.

Çəkir qılıncını belədən-belə,
Dünyanın qəribə təzadları var.
Yox, yox barışma gəl bu dünya ilə,
Ağıla sığmayan fəsadları var.

Görmədim bir kəsi razı bəxtindən,
Dövranın işini bilmək olmayır.
Salıb çoxlarını, salıb taxtından,
Zaman ağladanda gülmək olmayır.

Acılı-şirinli əfsanə həyat,
Azmı yolçusunu yoldan edibdir?
Tamaşa yaranıb ulu kainat,
Hər gələn bir cürə baxıb gedibdir.

Baş-başa yaşayır xeyir ilə şər,
Təbiət ən böyük açılmamış sirr.
Canlı möcüzətək yaranan bəşər,
Düşünən başları tilsimləyibdir.

Qopan fəryadların, o başdaşların,
Çəkilməz ağrısı cahana yükdür.
Mənası nə imiş yaranmışların,
Əvvəli heçlikdir, sonu heçlikdir.

Ölən lal gecəmə sökülməkdə dan,
Duyğular üstümə keçir hücuma.
Özüm də bilmədən gəlib haradan,
Bədbin hisslər qonur nikbin ruhuma.

Mən niyə alışıb közə dönürəm,
Hara çəkir məni, bu yanğı hara?
Nədən misralanıb sözə dönürəm,
Sözdən söz seçirəm ağ kağızlara.
Mən niyə köçürəm ağ kağızlara?
Mən niyə köçürəm ağ kağızlara?!..

DÖVRAN HARA BİZİ SÜRÜYÜR İNDİ?!

Allahım, nə deyim Allahsızlara,
Hara aparırlar dünyanı, hara?
Ağa ağ demirsə, qaraya qara,
Kor kimi yaşaya bəs niyə insan?

AZƏRBAYCAN
(Mahnı)

Ululardan bizə qalan,
Əmanətdi Azərbaycan.
Dönüb Məkkə, Mədinəyə,
Ziyarətdi Azərbaycan.

Dünya heyran gülşəninə,
Nəğmə deyir el şəninə,
Yaranışdan düşməninə,
Xəcalətdi Azərbaycan.

Zaman-zaman yaralanmış,
Bütöv ikən paralanmış,
Doğmasından aralanmış,
Dəyanətdi Azərbaycan.

Bəhər verməz yadın qəsdi,
Keçdiyi yol yada dərsdi,
Xəzinədi altı, üstü,
Fəxarətdi Azərbaycan.

Şərqdə yanan ilk od-ocaq,
Gurlandıqca gur yanacaq.
Dost ölkəyə açıb qucaq,
Məhəbbətdi Azərbaycan.

Azadlığın edib bəyan,
Haqq işini ərzə yayan,
Xoş sabaha addımlayan,
Bir dövlətdi Azərbaycan.

ZƏNGƏZURUN

Həsrət qaldıq, aman dostlar, yaylağına Zəngəzurun,
Yalıncıqlar sahib çıxdı oylağına Zəngəzurun.

Səhər mehi sığallardı saçımızı, ah, bir zaman,
Aciz olduq dönəmmədik dayağına Zəngəzurun.

Viran oldu ev-eşiklər yadellilər tapdağında,
Yurd-yuvasız doluşmaqda qucağına Zəngəzurun.

Oğuz yurdum Koroğlusuz, Cavanşirsiz, Babəksizdir,
Quldur girib hər küncünə, bucağına Zəngəzurun.

Zaman özü öz bətnindən doğacaqdır şah babamı,
Köçərilər qızınsa da ocağına Zəngəzurun.

Ay Həsənli, belə getməz təkrarlanar qoca tarix,
Qan qusdurruq çağrılmamış qonağına Zəngəzurun.

İNDİ

Haqqa dodaq büzüb, yersiz gülənlər,
Yalan üstümüzə yeriyir indi.
Haqsızlıq dünyanı alıb ağzına,
O buna, bu ona şər deyir indi.

Həddini aşdıqca əməllərimiz,
Tanrı da bizlərdən üz çevirir, üz,
Vara qurban verdik insanlığı biz,
Əməlisalehlər qəm yeyir indi.

Baxdıq, təbiətə kor kimi baxdıq,
Yeri də, göyü də yandırıb yaxdıq.
Çıxdıq, bu dünyanın sonuna çıxdıq,
Buzlu Okean da əriyir indi.

Dünya, çaşbaş dünya düşüb oyuna,
Bilməyir hədəfdən necə yayına,
Vurnuxur, qalıbdır o öz hayına,
Fəlakət onu da bürüyür indi.

Ərzi təlatümə salmışıq belə,
Çox müşkül işimiz qarşıda hələ,
Həsənli, bu ağıl, bu gediş ilə,
Dövran hara bizi sürüyür indi?!

ÖZÜMÜZÜK

Yaxındakı düşməni gör, uzaqdakı bizə bəlli,
İçimizdə öz işində iblis, şeytan, qaravəlli,
Millətimin ayağından tutub çəkir ikiəlli,
Başbilənə, haqq deyənə, düzə qənim özümüzük.

Gördük bizi dara çəkib, məngənədə sıxanları,
El-obanı qarət edib, qurulu ev yıxanları,
Yaxşımızın kökün kəsib, axırına çıxanları,
Bizə düşmən, bizə yağı, bizə qənim özümüzük.

Ümidini kəsib, xalqı ac-yalavac qoyanlar var,
Var üstündə cəllad kimi insanları soyanlar var,
Həccə gedib, nəzir verib günahını yuyanlar var,
Haqqa doğru gedən yola, izə qənim özümüzük.

Başımıza çıxarırıq huşu-başı olmayanı,
Soyğunçunu, rüşvətxoru, dərdimizə qalmayanı,
Qorxaqları, yaltaqları şəhid qanı almayanı,
Bu torpağa, bu ocağa, közə qənim özümüzük.

Həsənli, sən tək deyilsən, tərəzidi elin gözü,
Elə, yurda aşkar edək qara üzü, həm ağ üzü,
Millətimin özü desin azğınına qoy son sözü,
Deyəmməsək sözümüzü, sözə qənim özümüzük.

İNSAN

Tanrım, mat qalmışam yaratdığına,
Nola, bir-birinə can deyə insan.
Sevinir tor qurub, daş atdığına,
Sığmayır nə yerə, nə göyə insan.

Dola ağlı kəm də, dola ağıla,
Qısaca həyatı dönə nağıla,
Əzəldən sevinclə birgə doğula,
Nə kədər, nə də ki, qəm yeyə insan.

Səsləyə sabaha bütün bəşəri,
Xeyirə yol açа, məhv edə şəri,
Bitməyə qoymaya qozbel işləri,
Nə su bulandıra, iş əyə insan.

Allahım, nə deyim Allahsızlara,
Hara aparırlar dünyanı, hara?
Ağa ağ demirsə, qaraya qara,
Kor kimi yaşaya bəs niyə insan?

ŞUŞA HƏSRƏTİ

Şuşa əldən getsə son gülləmi
öz başıma çaxacağam.
Rəhim Qazıyev

Həsrətin fikrimi çəkir min yerə,
Bilinmir kimlərdi satan, satılan.
Bakirə adını qatdılar şərə,
Minillik varını etdilər talan.

Sən necə alındın, alınmaz qalam?
Mən mat-məəttələm, daşam, ay Şuşam!
Başına gülləsin çaxmayan "balan",
Yaşayır, ölməyib, Şuşam, ay Şuşam!

Ömrünə gör necə ömür calanmış,
Toxundu yaxana kafirin əli.
Sənsiz sağ qalanlar bir quru canmış,
Dərdindən bəs niyə olmuruq dəli?

İrəvan, Təbrizçün yara bağlaram,
Zəngəzur, Borçalı, Göyçə bir yana…
Dərbənd qalasına çıxıb ağlaram,
Şuşam, göz dağısan Azərbaycana.

Əsirlik haradan düşdü baxtına?
Din, xarı bülbülüm, Şuşam, ay Şuşam!
Necə uçub qonum o xan taxtına?
Qanadı qırılmış quşam, ay Şuşam!

Bir duyğu içimi yandırıb yaxır,
Yağı öz qanında boğulmur hələ.
O tayda Şah Qacar məzardan baxır,
Bu tayda Cavad xan doğulmur hələ.

***

Bir kövrək duyğudan, səmimi hissdən,
Od vurar ilhamın əli könlümə.
Çalxanan ümmana çevrilərəm mən,
Fırtına üz verər dəli könlümə.

Heç yana, heç yerə çıxa bilmərəm,
Şimşəklər oynayar baxışlarımda.
Səhərin gözünə baxa bilmərəm,
Qalsam bir misranın yoxuşlarında.

Susmayan ilhamla, bir saf diləklə,
Hər gün bir həvəsə gələr ürəyim.
De kimə gərəyəm bomboş ürəklə,
Mənasız döyünməz ölər ürəyim.

ALLAH

Yenə od vurmaqda yurdsuz yurduma,
Dünyanın dərdini yükləndim, Allah.
Min ləkə yaxmaqda təmiz adıma,
Çirkinlər əliylə çirkləndim, Allah.

Yandı çöl-çəmənim, torpağım yandı,
Yağı öz işində xeyli zamandı.
Ağrılı ürəyim ağlar kamandı,
Sarı sim üstündə kökləndim, Allah.

Yurdbasan yurdumdan kənar atılmır,
Mənə dərd verənə bir dərd yapılmır,
Qolumdan yapışan bir əl tapılmır,
Tək qaldım meydanda, təkləndim, Allah.

Kar olub səsimə, kar olub dünya,
Görmür gördüyümü, kor olub dünya,
Ölüb-itənimə gor olub dünya,
Qırılıb tərg oldum, tükəndim, Allah!

HƏSRƏTİMİN SONU VAR

"Yazdığımız tarixdən bütün yalanlarımızı çıxarsaq bizim tariximizdə heç nə qalmaz".
S.İbadyan

Xəyalımda qartalların harayı,
Qarlı zirvə, neçə-neçə bulaq var.
Saçlı söyüd, ağ şəlalə, dağ çayı,
Bir dağ kəndi, gül ətirli yaylaq var.

"Səngər", "Kəpəz" gəlib keçir gözümdən,
O çöl-bayır, meşə, çəmən, təpə, düz.
Xəbərim yox ocağımdan, közümdən,
Gəl-gəl deyir sanki mənə cığır, iz.

Tanrım özü haqqa qapı açandı,
Kim deyir ki, çarəsi yox dərdimin?
Varlığımda qərar tutmuş haçandı,
Loğmanı var mənim bu çox dərdimin.

Yağı, gülmə bu gecikən köçümə,
Tarixləşən, ululaşan iz itməz.
Tariximi tarixinə köçürmə,
Düz yazımı əyri yazma, düz itməz.

Yerdə qalmaz tökülən qan, köçəri,
Gen dünyanı küt başına etdin dar.
Çıx yurdumdan, çıx yuvamdan, köçəri,
Həsrətimin görk olası sonu var.

BİLMƏZ

Hər yetən avara, hər yetən gədə,
İgid ola bilməz, ər ola bilməz.
Sücaət

Mərdə xəta yetsə namərdən yetər,
Mərddə fitnə-fəsad, şər ola bilməz,
Ar-namus bilməyən tumarlı əntər,
Düşər el gözündən, «ər ola bilməz».

Dilini ağzında dinc qoymaz naqqal,
Tərəzi dalında pul güdər baqqal,
Çöllükdə sümsünər, ulayar çaqqal,
Tülkü xislətlidən «şir ola bilməz».

Üzü üzdən edər sürtülmüş üzlər,
Buynuzsuz buynuzun içində gizlər,
Köklülər yanında bitsə köksüzlər,
Sütun ola bilməz, tir ola bilməz.

Həsənli, gen düşdün torpaq - daşından,
Dərdin selə dönüb aşır başından,
Sən bir sərraf idin körpə yaşından,
Nakəslər gözündə pir ola bilməz.

BƏZİ MİLLƏT VƏKİLLƏRİNƏ

Millətin əhvalı, eyni sizsiniz,
Düşünən, daşınan beyni sizsiniz,
Öndə, bərk gedəni, yeyni sizsiniz,
Uğurlar, uğurlar, uğurlar sizə.

Şükür, yeriniz lap yuxarı başdı,
Fikriniz millətdi, torpaqdı, daşdı,
Atəşkəs deyilən dava-dalaşdı,
Uğurlar, uğurlar, uğurlar sizə.

Kefiniz dupduru, qarnınız toxdu,
Tamahınız tamah, baxtınız baxtdı,
Altınızda maşın, paranız çoxdu,
Uğurlar, uğurlar, uğurlar sizə.

Biz ki, seçməmişdik, seçdilər sizi,
Buz kimi saxlayın ürəyinizi,
Kəsəndə çox kəsin çörəyimizi,
Uğurlar, uğurlar, uğurlar sizə.

Torpağa, daşa da son həddi qoydunuz,
Düşünən başa da son həddi qoydunuz,
Yaşanan yaşa da son həddi qoydunuz,
Uğurlar, uğurlar, uğurlar sizə.

Fəxr edin, şahanə dam-daşınızla,
Səliqə-sahmanlı üst-başınızla,
İşiniz olmasın öz yaşınızla,
Uğurlar, uğurlar, uğurlar sizə.

2011

ÇIRAQQALA

Qala üstə sönüb çıraq,
Gördüm, düşdüm haldan-hala.
Ayaq basdım it sümsünən,
Qurd ulayan qədim yola.

Yollar, izlər pərən-pərən,
Nə düşünür baxan, görən?
Qürrələnib, ay boy verən,
Gəl özünü dərdə cala.

Tarixini unutduğum,
Sınıq-salxaq yaşatdığım,
Həsrətini qanatdığım,
Daş yaddaşım - Çıraqqala!

Qovğa gəzir başın üstə,
Yaş gəlməkdə yaşın üstə,
Daş qalmayıb daşın üstə,
Xəqanların ola-ola…

Qalaaltı, 2006

BU ELDƏ

Peşəkar hüquqşünas, dəyərli ziyalı dostum Polad Məhərrəmliyə

Aldılar kütləni, aldılar ələ,
Azaldı seçənlər yaxşını pisdən.
Ələbaxan olub millətim, Lələ,
Təmənna gözləyir verdiyi səsdən.

Bu eldə səsi də satın alırlar,
Bu eldə işləmir qanun, qadağa?
Yaxşı adamları gözdən salırlar,
Yaramaz kəslərə nə ad-san, qağa?!

Bu eldə quldurlar, oğrular haqsa,
Demək əyri əli yox bağlayan, yox!
Bu seçim, bu seçki gün ağlamaqsa,
Nədən günümüzə yox ağlayan, yox?!

Kimlərin yerinə kimlər seçildi,
Nağıla bənzədi bu iş, nağıla.
Namusdan, qeyrətdən, ardan keçildi,
Düzələn deyilik aləm yığıla.

Vətənin dərdini kim dərd eyləyir,
Adı böhtan dolu qaradan keçir.
Mərdi qova-qova namərd eyləyir,
Kimin ki, seçimi paradan keçir.

Haqlıya, haqsıztək hökm oxunursa,
Hakimim köləsə, nə haqq-ədalət?!
Haqlının ağzına daş tıxanırsa,
Bu necə ölkədi, bu necə millət?!

Yeri aşağıda olan bir kəsi,
Çəkib oturtdular yuxarı başda.
O dil-dil ötənin çıxmırsa səsi,
Döyünərmi qəlbi torpaqda, daşda?

De, hara aparır bu yurdu tamah?
Bu sual vicdanın, haqqın səsidir,
Vətənə xəyanət keçilməz günah,
Millətinin ən böyük faciəsidir.

İnsanın vüqarı nə tacdır, nə taxt,
Tarix bağışlamır səhv edənləri.
Vətən vətəndirsə, unutmaz heç vaxt,
Dünyaya mərd gəlib, mərd gedənləri!

2006

BİZİM YERLƏR BELƏ OLMUR

Fərhad Qubadova

Qocam, məni hara gətdin,
Dərdə saldın, vərəmlətdin,
Ürəyimi al qan etdin,
Bizim yerlər belə olmur.

Dağ almadı salamımı,
Dost tutmadı kəlamımı,
Meh öpmədi qələmimi,
Bizim yerlər belə olmur.

Lal çayları gur! gur! - demir,
Uçqunları dur! dur! - demir,
Bərələri vur! vur! - demir,
Bizim yerlər belə olmur.

Qartalların sədası yox,
Qayaların odası yox,
Gül-çiçəyin ədası yox,
Bizim yerlər belə olmur.

Çöllər "ilham al" demədi,
Yaylaq "fikrə dal" demədi,
Bulaq "getmə, qal" demədi,
Bizim yerlər belə olmur.

Dərya göstər, axım gedim,
Gözlərimi sıxım gedim,
Qəribsədim, çıxım gedim,
Bizim yerlər belə olmur.

MƏNİ

Qəflət yuxusundan qalxmağım gecdi,
Bir kimsə olmadı oyada məni.
Açınca gözümü iş-işdən keçdi,
Bənzədin ov vurmaz səyyada məni.

Əritdim dərdləri qalası qaldı,
Çəkmədim dərdimin əlası qaldı,
Dilim başa bəla qalası, qaldı,
Atanım atıbdır oy oda məni.

Yurd-yuvam ömrümdən itən nur, işıq,
Loğman təbiətim elə yaraşıq.
Vurğunum elə-oba, torpaqqarışıq,
Satdılar namərdlər o yada məni.

Dost ilə düşməni duy, ara, lələ,
Sağalmaz sinəmdə bu yara, lələ,
Yar di bu sinəmi, di yar, a lələ,
Xilaf çıxdı demə soy, ada məni.

KEFİMİ SORUŞDUN

Sıxıntı içində çırpınır həyat,-
Yaşanan ömür-gün ürəyə yatmır.
Ehtiyac qapını döyür hər saat,
Bir aylıq məvacib bir günə çatmır.

Dilənən çoxalır ac arasında,
Ümidlə "Allaha pənah" - deyən var.
Gəz bu dünyamızın gör harasında,
Dərd əkib, qəm dərib, ümid yeyən var.

Ağzı isti yerdən açılanların,
Ağzının üstündən vuranı yoxdu.
Kef çəkib kefindən qıc olanların,
Neyləyək, arxalı köpəyi çoxdu.

Kimisi xaricdə villa aldırır,
Kimini çadırda şaxta, qış kəsir.
Kimisi "qaz vurub qazan doldurur",
Kimi "bir həsirdir, bir Məmmədnəsir".

Uçulmazmı zülmün, nahaqqın taxtı?
Haqqın yazılmayan qanunu sərtdi…
Kefimi soruşdun ilin bu vaxtı,
Sağ olmuş, dilinə sözmü qəhətdi?!

GÖZÜM DOST AXTARIR

Başımıza nələr gəldi, gör nələr?
Qorx kəfənsiz qala bir gün gorumuz.
Asif Asiman

Hamıdan çox sevir məni kədər, qəm,
Başlanıb ömrümün yarpaq tökümü.
Qəm üstə köklənib əlimdə qələm,
Kiminlə tən bölüm bu qəm yükümü?

Atdanır ürəyim dost sözü üçün,
Ağır günlərimdə gözə dəyən yox.
Ötən bu karvanın, köçən bu köçün,
Döndüm sarvanına bir əyləyən yox.

Daşınır doğmalar, daşınır yaman,
Ölüm adiləşib, gün adiləşib.
Tanrı yıxdığına verməyir aman,
Talelər çovğuna, borana düşüb.

Bu zalım fələyin mənlə qəsdi nə?
Ahımdı ucalan dağlara sarı.
Hara gedirəmsə yolum üstünə,
Ələnir zamanın vədəsiz qarı.

Bağlayıb bəxtimi daha bəxt açan,
Təklənib qalmışam odlar içində.
Bir ilıq, bir həlim sözə möhtacam,
Gözüm dost axtarır yadlar içində.

Neyləyim obası, yurdu dağılan,
Daha gözdən düşən, itən vaxtımdı.
Daha arzuları yetim doğulan,
Qəbirlər üstündə bitən vaxtımdı.

Növbə mənə çatır, Asif Asiman,
Qan tutub fələyin görən gözünü.
Daha yaşamağa qalmayıb güman,
Gəl çatdır özünü, çatdır özünü.

Bağlayıb bəxtimi daha bəxt açan,
Təklənib qalmışam odlar içində.
Bir iliq, bir həlim sözə möhtacam,
Gözüm dost axtarır yadlar içində.

2000

QARANQUŞ YUVASI
Bir yaz səhəri şair dostum Sabir Yusifoğlunun eyvanında qaranquş yuvasını gördüm

Hər eyvanda yuva qurmaz heç vədə,
Qaranquşa "seyid quşu" deyirlər.
Perikdirmə yuvasından, nəbadə,
Qapınıza ayaq açar xeyirlər.

Quşluğuynan sənə pənah gətirib,
Qayğı göstər, çöldə çiskin, yağışdır.
Gör nə paydı sabah-sabah gətirib,
Qələm götür ağ kağıza sığışdır.

Dünən birdi, bu gün neçə olubdur,
Yuvaya bax musiqitək səslənir.
Səs-küyləri ev-eşiyə dolubdur,
Sandım onlar evindəcə bəslənir.

Nə demisən sehirlənib bəlkə də,
Başın üstə qanadını saxlayıb.
Quşumuz da didərgindi ölkədə,
Dərd-qəm bizi yaman yerdə haqlayıb.

Bir dərdliyik o quş qərib, mən qərib,
Haçan dönüb yurd-yuvamı tikəcəm?
Sənin qədər səmimiyyət göstərib,
Bir qaranquş qayğısını çəkəcəm?

Qardaş, mənə oxşarı var o quşun,
Yanacaqmı yurd yerində sönən şam?
Duysa məni lələk salar o quşun
O yuvanı görən gündən bihuşam.

12.05.1994

ƏLİ KƏRİMƏ

Uğurlu səfəri yarıda qalan,
Dünyaya söz üçün doğulan şair.
Yanıb misra-misra sözdən bac alan,
Əriyib dərdində dağ olan şair.

Cəfasın çəkərdin fikrin, xəyalın,
Yeni bir səs idin bəşəriyyətə.
Göyçaydan başlanan ulu bir yolun,
Sonu çatmalıydı əbədiyyətə.

Elə ağırdır ki, ayrılıq dərdin,
Əsən küləklər də səni anarlar.
Bir vaxt çinarlara nəğmə deyərdin,
İndi nəğmə deyir sənə çinarlar.

Çoxdu sözdə səndən geri qalanlar,
Baxma, vəzifəcə öndə idilər.
Sağ ikən kölgəni qılınclayanlar,
Öləndə "bir şair öldü", - dedilər.

QORU ÜRƏYİNİ

Vətənsiz borana, qara düşmüşəm,
Harda ölməliydim, hara düşmüşəm.
Elbrus Qayalı

Quş da yuvasından perik düşməsin,
Hər misran yurd üçün ağlayır gördüm.
Duz səpir yarama titrəyən səsin,
Sinəndə Bərgüşad çağlayır gördüm.

O torpaq ağrısı, ürək ağrısı,
Tükənəsi deyil çəkilən bu dərd.
Durur torpaq satan, torpaq oğrusu,
Mərdləri güdaza verdi çox namərd.

Bu sirli, sehirli, gizli oyunun,
Başında kim idi, ayağında kim?
Qəfil düşdüyümüz dərin quyunun,
İçində biziksə, qırağında kim?

Dərdləri başından aşan bu yurdun,
Çoxdu sənin kimi fikir çəkəni.
Babəki yoxdursa, paşam, bu yurdun,
Qurtar əzabından dara çək məni.

Qoru ürəyini - gedir sorğusu,
Bağlanan yolları, bağlayan açar.
Çox dostu apardı ürək ağrısı,
Neçə yas içində kişisiz ev var.

Çalxanıb o başda bulanan suyun,
Süzülüb bu başda durulmağı var.
Bitər, belə qalmaz, bitər bu oyun,
Dağılan tifaqın qurulmağı var.

2006

ƏLLƏRİM

Mən sizi öyrətdim halal zəhmətə,
Sizdə ürəyimin hərarəti var.
Demirəm çatdırın məni şöhrətə,
Sizdən bu qeyrəti vətən, el umar.

Siz ey qələm tutan fəhlə əllərim,
Yol açın ömrümə cığır, iz olun.
Əgər istəsəniz qalxım, yüksəlim,
Daim günəş kimi ləkəsiz olun.

ŞƏHƏRLİ ŞAİR DOSTUMA

Vaxtında gəlmisən bizim bu yerə,
Gecəsi-gündüzü ay səhərli dost.
Dindir gör nə deyir bu dağ, bu dərə,
Ay kəndə tamarzı, ay şəhərli dost.

Ürəyin doludu, qələmin iti,
Şəhərdə düşünüb kənddən yazırsan.
Yaxşı duy anamız bu təbiəti,
Yaz, kənddə düşünüb, şəhərdən yazsan?!

Çıx uca dağlara, dağlara söykən,
Atıl qıcağına ana torpağın.
Ətəkdən boylanma zirvələrə sən,
Qaralar gözlərin, düşər papağın.

Düş təzə cığıra, izə addımla,
Qaldırsın, endirsin hey yollar səni.
Tər axsın alnından qoy damla-damla,
Yorsun bu gədiklər, dolaylar səni.

Yarıb meşələri, kol-kosdan sıyrıl,
Əyil bulaqların lilparından iç.
Yat çəmən üstündə yuxudan ayıl,
Bu imkan əlinə düşəcəkmi heç?

Qoşul dərələrin zümzüməsinə,
Səsini çayların ahənginə qat.
Səs ver şəlalənin şaqraq səsinə,
Əri gözəlliyin sehrində it, bat.

Tapdama bir gülü, çiçəyi belə,
Elə dər moruğu, yer inciməsin.
Bir misra söz söylə çiçəyə, gülə,
Gözəllik qəlbinə kasıb deməsin.

Ürəyin doludur, qələmin iti,
Şəhərdə düşünüb kənddən yazırsan.
Yaxşı duy anamız bu təbiəti,
Yaz, kənddə düşünüb şəhərdən yazsan?!

1979

ÜÇTƏPƏDƏ

İslam Türkaya

Cənnət nədi, behişt nədi,
Getdim gördüm Üçtəpədə.
Ətir saçan gül-çiçəkdən,
Çələng hördüm Üçtəpədə.

Qonaq oldum əsən mehə,
Diziməcən batdım şehə.
At kişnədi qalxdı şahə,
Köhlən yordum Uçtəpədə.

Öpdüm bumbuz bulaqları,
Gəzdim bir-bir yaylaqları,
Oğuz yurdu - oylaqları,
Çadır qurdum Üçtəpədə.

Qaşın çatıb fikrə dalan,
Nəbilərə səngər olan.
Babəklərdən miras qalan,
Dağlar - ordum Üçtəpədə.

Qayaları qurub bardaş,
Qoymayırdı gələm, qardaş,
Gözüm doldu qayıdan baş,
Ulu yurdum Üçtəpədə.

1978

QATAR MEHRİDƏN KEÇİR

Qatı zülmət bir gecə,
Yağır fişəng yağışı.
Düşür pəncərələrə
Güllələrin naxışı.

Qatar atəş altında
Gah gedir, gah dayanır.
Böyük-kiçik yuxudan,
Səksənərək oyanır.

Kimi döşəmə üstə,
Kimi gizlin yer seçir.
Hamı təlaş içində,
Qatar Mehridən keçir.

Diri ikən elə bil,
Güllələnib içimiz.
Ürək-dirək verərək,
Deyinir bələdçimiz:

-Azğın, quldur dığalar,
Yenə kəsib qabağı.
Gecənin gecə vaxtı,
Nə istəyir bu yağı?

Guya bizi qoruyur,
Qatarda rus əsgəri.
Havaya atəş açıb,
Hərdən özün göstərir…

Sən işə bax, gücə bax,
Dünyanın dinc çağında.
Yol gedə bilməyəsən
Özün öz torpağında.

1987

QUBADLIM

Torpağını verməməkçün yadlara,
Yatmış şirtək ayıldılar igidlər.
Sənin üçün atıldılar odlara,
Dərisindən soyuldular igidlər.

Əlyarların kürəyindən vuruldu,
Qumarbazlar qoydu səni qumara.
Qorxmazların odda yandı, kül oldu,
Yurd yerlərin döndü qanlı məzara.

Kimlər satdı, kimlər aldı bilmədik,
Qovan qovdu, qaçan qaçdı, nə deyim.
Kimlər öldü, kimlər qaldı bilmədik,
Tanrı bizə nə gün açdı, nə deyim.

Kişilərin tükəndimi, ot kimi,
Torpağında kişi bitən Qubadlım!
Yaşayırsan ürəyimdə çat kimi,
Həsrətimə dönən vətən Qubadlım!

Hara gəldi yazanlar var adını,
Dilə düşüb hallanırsan şəhərdə.
Min bir yerə yozanlar var adını,
"Daddanırsan, ballanırsan" şəhərdə.

Oğulların yarı Araz, yarı Kür,
Ahılların canında yox təpəri.
Körpələrin sənsiz yetim böyüyür,
Olacaqmı onlar düşmən çəpəri?

Kim alacaq şəhidlərin qisasın?
Kimi, nəyi gözləyirik, vaxt ötür?
Bir-birinə qarışıbdır toy-yasın,
Şəhərlərdə ömür bitir, gün bitir.

Gecə-gündüz xiffətini çəkirik,
Dərd içində yaşayırıq çoxumuz.
Gözümüzü yardımlara dikirik,
Gözümüzdən qaçaq düşüb yuxumuz.

Sığallanır, tumarlanır başımız,
Yaddan gələn yağlı vədə uyuruq.
Unudulur, torpağımız, daşımız,
Buyruq qulu olanlardan nə buyruq?!

İstəmirəm kimsə uca adını,
Şəhərlərdə saraylara yazdıra.
İstəmirəm kimsə sağ-sağ yurdunun,
Şəhərlərdə məzarını qazdıra.

İstəyirəm silah tutan əl ilə,
Ölkələri ayağına gətirəm.
İstəyirəm əlbir olub el ilə,
Bu həsrəti aralıqdan götürəm.

Duyanların qoy səs versin səsimə,
Sevsin səni incik düşən inciklər.
İşlərini qurmasınlar tərsinə,
Kiçiltməsin səni özü kiçiklər.

Kişilərin tükəndimi, ot kimi,
Torpağında kişi bitən Qubadlım!
Yaşayırsan ürəyimdə çat kimi,
Həsrətimə dönən vətən Qubadlım!

2000

GÖRÜNDÜ

Yal-yamacı yol eylədim,
Bərələrdə tor göründü.
Dağda dinən şəlalənin,
Sinəsində tar göründü.

Yanağında bir damla yaş,
Dağ çiçəyi qaldırdı baş.
Dağdan qopub helləndi daş,
Gədiklərdə sar göründü.

Buzlu dərə döndü neyə,
Qaldım üşüyə-üşüyə,
Heyrət etdim bənövşəyə,
Ətrafında qar göründü.

Ətəklərdə bu nə sirdi,
Arı güldən bal çəkirdi.
Otlar şehdən su içirdi,
Çiçəklərdə bar göründü.

Tənha, ahlı-amanlıydım,
Dağlar kimi dumanlıydım,
Həsrətliydim, gümanlıydım,
Bulaq üstə yar göründü.

Könül istər şərqi deyə,
Valeh oldum gözəlliyə,
Sığışmadım yerə, göyə,
Dünya mənə dar göründü.

1974

DÜŞDÜM

Kömürlə yazılıb taleyim mənim,
Tufana tuş gəldim, sellərə düşdüm.
Bir göz qırpımıymış ötən ömür-gün,
Qəzalı, qadalı illərə düşdüm.

Mən piyada oldum arzular atlı,
Əyri yol tutanlar daşda kök atdı,
Düz yolum tikantək gözlərə batdı,
Dəli-divanədək çöllərə düşdüm.

Qaldım, həsrət qaldım ulu bir elə,
"Didərgin" adını daşıdım belə.
Axdı gözlərimdən yaş gilə-gilə,
Qovdular ellərdən ellərə düşdüm.

Alışan sinəmi açdım dərd-qəmə,
Könlümü, sevgimi verdim qələmə.
Qəmli nəğmələrim qondu dilimə,
Həsənli soyuyla dillərə düşdüm.

DAYIM

Ömrünün son anlarına qədər torpaq, el-oba həsrəti ilə yaşayan və yurd yerindən nigaran dünyasını dəyişən dayım Aslan Mirzalı oğlunun əziz xatirəsinə.

Düşdük, iblislərin felinə düşdük,
Satqınlar arada quyruq buladı.
Hər ağzıgöyçəyin dilinə düşdük,
Qapı-bacamızda bayquş uladı.

Sən ey dağ cüssəli, polad biləkli,
Atlını atından endirən dayım.
A ləngər yerişli, enli kürəkli,
A lal qayaları dindirən dayım.

Özgələr əlində alət millətin,
Lənətə gəlmişin xislətin gördük.
O yamaq millətin, ölət millətin,
Gördük, bizə olan qələtin gördük.

Yenə köhnə hamam, yenə köhnə tas,
Başqa bir oyundu bu oyun, dayım…
Bizə nə edəndi Xaço, Ardavaz,
Arxalı köpəkdi bu qoyun, dayım!

Əyilməz başıydın elin, obanın,
Yaxşı tanıyırdı dığalar səni.
Tüstüsü göz tökdü yanan sobanın,
Didərgin saldılar yağılar səni.

Bu "qərib" şəhərə sığa bilmədin,
"Şəhər sıxır məni elə bil" - dedin.
Eynin açılmadı, üzün gülmədi,
"Biz çəkən dərdləri çəkməz fil" - dedin.

Anamın yadigar, madar qardaşı,
Elin dərd-sərini daşıyan dayım.
Dərd edib özünə torpağı, daşı,
Qaçqın taleyini yaşayan dayım.

Alnına söykəyib iri əlini,
Dərin bir xəyala gedərdin hərdən.
Bir vaxt böyütdüyüm o son şəklini,
Baxıb boğuluram indi qəhərdən.

Gözünü yollardan yığışdırmadın,
Çox çaşqın namərdi mərd elədin sən.
El dərdin şəninə sığışdırmadın,
El dərdin özünə dərd elədin sən.

Narahat dünyadan doyub gedənim,
Adı ürəklərə yazılan dayım.
Yerində beş övlad qoyub gedənim,
Məzarı qürbətdə qazılan dayım.

2010

ATA

O nə tale idi yaşadın, getdin,
Yoxsan, bulud kimi dolmuşam, ata.
Sevən könülləri necə tərk etdin,
Sonsuz xəyallara dalmışam, ata.

Yanına düşəydi fələyin əli,
Fikirdən, kədərdən dəliyəm, dəli.
Sənə yol gəlirəm ta sən gedəli,
Tək-tənha yollarda qalmışam, ata.

Çıxmır ürəyimdən dərdin, azarın,
Həsrətə, nisgilə dönüb məzarın,
Atalı böyüyən ədəbazların,
Yanında özümdən olmuşam, ata.

Sən, ey vaxtsız sönən çırağım mənim,
Güvəncim, söykəyim, dayağım mənim,
Tanrıdan quruyan bulağım mənim,
Bir dur gəl gör necə solmuşam, ata.

Sən idin qəlbimi döndərən dağa,
Şaxta, sazaq vurdu döndüm yumağa,
Sənsiz nə haqqım var sevinc ummağa,
Qəmə boyun əyən qulmuşam, ata.

Bu necə yazıymış, pozanı yoxmuş,
Yazını yaxşıca yazanı yoxmuş,
Bu yazı mənimmiş, yozanı yoxmuş,
Verəni veribdir almışam, ata.

1977

KİŞİ QEYRƏTİ

Həkim N.Ələkbərovaya

Keçdi xəyalından "Hippokrat andın",
Haqqın, ədalətin yeri varıymış.
İki yol önündə durub, dayandın,
Hər yolun öz səmti, sirri varıymış.

Məhsəti boylandı tarixdən sanki,
Natəvan əlində qələmi gəldi.
Pəhləvan cüssəli, qız Ərəbzəngi,
Pəri heykəlində qalxdı, dikəldi.

Həcər at belinə sıçradı bu dəm,
Nənəm Tutubikə qırdı hədləri.
Ötdü bir taledən ağır kədər, qəm,
Dağıldı, töküldü qəm sərhədləri.

Bir tale ulduzu közərdi, yandı,
Gördüyüm bir yuxu çin oldu o gün.
Əlimə bir kişi əli uzandı,
Bir kişi qeyrəti doğuldu o gün.

1991

OĞUL

Arvad kölgəsində çox kişi yatıb,
Kişinin bir olur adı, ay oğul.
Uyub şirin dilə, doğmanı atıb,
Tutma ikiəlli yadı, ay oğul.

Qeyrət qanda olur deyildir bu sirr,
Verdiyim öyüdü düşün birbəbir.
Tərəddüd içində titrəyib tir-tir,
Salma canımıza odu, ay oğul.

Sevdiyin olsa da ocağın, pirin,
Anadan, bacıdan olammaz şirin.
Tuta bilmədinsə atanın yerin,
Deyərlər qırıqdır zatı, ay oğul.

Kökdə bitmədinsə, budaqda bitmə,
Haqqa yetmədinsə, nahaqqa yetmə,
Öndə getmədinsə, yedəkdə getmə,
Salma boğazına çatı, ay oğul.

Demirəm nadansan, demirəm kalsan,
Həsənli dözərmi naxələf olsan?
Əsli qıt, sevgisiz gözəli alsan,
Yoldurar bil sənə otu, ay oğul.

2003

ELOĞLU

Atakişi Fərrux oğlu Əsədova

Bəy babalar köçüb getdi…, çox hayıf,
Biz nəvələr bəy olmarıq, eloğlu.
Yatdığımız fil qulağı deyəsən,
Bərk yatmışıq, ayılmarıq, eloğlu.

Ağlımızın güzgüsüsə dinən dil,
Var-dövlətlə qürrələnmək iş deyil,
Sayılanı sayammasaq onu bil,
El içində sayılmarıq, eloğlu.

Birliyimiz ürəklərə yatmasa,
Yurd sevgisi başımıza batmasa,
Yıxılana əlimiz əl tutmasa,
Zay olarıq, bay olmarıq, eloğlu.

İşıq olub zülmətlərə nur saçsaq,
Haqq deyilən bir varlığa qəlb açsaq,
Acgözlükdən, dargözlükdən gen qaçsaq,
Dərimizdən soyulmarıq, eloğlu.

Həsənli də dərd əhliydi - söz oldu,
Dilsizə dil, gözsüzlərə göz oldu,
Öz-özünə alovlandı köz oldu,
Alışmasaq duyulmarıq, eloğlu.

27.07.2009

50 YAŞIMA

Salam, əlli ilim, ay əlli yaşım,
De, nə tez yaxamdan yapışdın belə?
Salam, ömrüm-günüm, a yol yoldaşım,
Gəldin, nə gətirdin gəlişin ilə?

Gəldin vərəqləndi yorğun yaddaşım,
Boylanma əlimə, əllərim boşdu.
Gəldin hiss etmədi torpağım, daşım,
Ötmə sükut kimi, demə ki, xoşdu.

Yaşadım demərəm, yaşantım deyim,
Suçluyam yanında üzüm qaradı.
Elə tutulmuşam, açılmır eynim,
Ümidim xoş gələn sabahlaradı.

Ver sıxım əlini, oxşayım bir də,
Çəkim ağrısını dərdi-sərimin.
Yaşayım qəmini, yaşayım bir də,
Heçə-puça çıxan ümidlərimin.

Gəldin bu qəfil gəlişinlə sən,
Əlim gəncliyimə uzana qaldı.
Ölən arzularım keçdi gözümdən,
Baxdım əlli ilə, gözüm qaraldı.

Çiynimə düşəsi ağır yük oldun,
Çırpındı, çırpındı sinəmdə ürək,
Tələsən illərdən nahaq doğuldun,
Sən mənim arzumdan doğaydın gərək.

Keç yatan bəxtimdən, taleyimdən keç,
Xəbər ver yarımçıq qalan işimdən.
Yolunda bəs qədər baş qoymadım heç,
Usandım, sıxıldım bu gəlişindən.

1996

İNDİ

Çəmən, sənin mən dolanım başına,
Üzə gülür çiçək indi, gül indi.
Bahar gəlib torpağına, daşına,
Nəğmə deyir aşıb-daşan sel indi.

Həsrət idim çeşmələrin suyuna,
Çeşmə üstə gözəllərin yuyuna.
Can dərmanı meşələrin qoynuna,
Oba-oba axıb gəlir el indi.

Nə gözəldi çay kənarı güllüklər,
Gül-çiçəklə cilvələnib çöllüklər.
Bulud ötdü, əsdi sərin küləklər,
Susmaq bilmir canda ürək, dil indi.

Yaylaq doğma yaylağıma oxşadı,
Bulaq doğma bulağıma oxşadı,
Oylaq doğma oylağıma oxşadı,
Yurdsuz canım, yurd qədrini bil indi.

Oba gördüm, obam düşdü yadıma,
Qarı düşmən ləkə yaxır adıma,
Sahib çıxıb ocağıma, oduma,
İçimdə var bir çalxanan göl indi.

Aşılıbdı aşılmayan dağlarım,
Yada qalıb bar-bəhərli bağlarım.
Hanı mənim yallı gedən çağlarım,
O yerlərə hayıf çatmır əl indi.

Dərd üstündə kökləməkdə dərd məni,
Haraylayır doğma ocaq, yurd məni.
Zalım fələk yaman etdi pərt məni,
Sinəm üstə inləməkdə tel indi.

"Qoşabulaq", ürəyimcə çağladın,
Heydən düşən ilhamımı bağladın.
Ay Həsənli, gözün doldu, ağladın,
Gözdən olan gözlərini sil indi.

İsmayıllı rayonu,
Qoşabulaq yaylağı.
12.08.1996

SALAM

Salam ver,
Salam al
demiş babalar.
Salam verməyin,
almağın
təhri var.
Salam - hikmət, işıq, nur.
Salam - qəlbdən doğulur.
Salam - istək, qayğıdı,
Salam - ali duyğudu.
Salam - ünsiyyətdi,
vəhdətdi,
kamdı.
Salamsız adamlar
naşıdı, xamdı.
Tək əldən çıxmayıb
Hələ ki, bir səs.
Salamsız, kəlamsız
olmasın heç kəs.
Saymazı salamla,
Sına - demişlər.
Salamsız adamı
qına demişlər.
Quruca bir salam
verə bilməyən,
Özünü kənardan
görə bilməyən.

Sənədi, sənədi, sənədi sözüm!
Hardandı qəlbində
o sərtlik, dözüm?!
Salam ver,
Salam al
dilin yırtılmaz.
Rezin ha deyilsən,
adam dartılmaz.
Salam ver,
salamın adiləşməsin,
Salam ver,
salamın yerə düşməsin.
Salam verək,
Salam alaq.
Salam verib,
Salam alıb,
gəlməyək
badalaq!

1970

VƏTƏN SƏNƏ OĞUL DEYİR

Vətən mənə oğul desə, nə dərdim,
Mamır olub qayasında bitərdim.
M.Araz

Qənim doğulmuşdun dərdə, ələmə,
Sözün cəfakeşi, ey ustad şair!
Tanrı vergisiydin küllü aləmə,
Təpədən-dırnağa istedad şair!

İzin var bu yurdun hər qarışında,
Ağartdı fikirlər qara saçını.
Zirvələr kiçilər inan qarşında,
Şahlar ayağına tökər tacını.

Polad misralara ürək, can verdin,
Kök atıb torpaqda dağtək bitmisən.
Vətən oğul deyir sənə, nə dərdin,
Könüllər fəth edib kama yetmisən.

Sözə inamımsan, yurda təsəllim,
Hər misran aşılmaz fikir qalası.
Qarabağ ağrılım, Araz nisgillim,
Yurdumun sevimli şair balası.

Sözdən sarayını hörüb vətənin,
Kədərdən bac alıb, sevincdən qaçdın.
"Araz şırımı"nı görüb vətənin,
Ərzə Məmməd Araz işığı saçdın.

ƏBÜLFƏZ ELÇİBƏYƏ

Andiçmə mərasimində prezident Ə.Elçibəy diz qatlayıb üçrəngli bayrağımızı öpən anda özümdən asılı olmayaraq gözlərimdən yaş axırdı.

Bu nə ömür idi şimşəksayağı,
Şər qondu baxtına, vaxtına sənin.
Qarışıq saldılar qaranı, ağı,
Xəyanət yol tapdı taxtına sənin.

Özündən ucada tutdun vətəni,
Yetən saflığına bir ləkə yaxdı.
Günaha batırdı nadanlar səni,
Qurbanlar verildi, çox qanlar axdı.

Düşündün, "kiminlə yol gedəsən ki",
İnandın millətlə, bir addım atdın.
Meydanın genişdi nə edəsən ki,
İblislər üçün də meydan yaratdın.

Sən azadlıq dedin, üzünə gülüb
Azğınlar dar gündə ara qatdılar.
Bölünmüş vətəni yenidən bölüb,
Vətən xainləri kama çatdılar.

Bu millət ayıla, ayıla gərək,
Keçdiyin tarixi varaqlayaraq.
Bizim and yerimiz sayıla gərək,
Öpdüyün o bayraq, yatdığın torpaq.

1995

BAL ƏHVALATI VƏ İKİ ŞEİRİN TARİXÇƏSİ

Bir gün eşitdim ki, bəs şair dostum Mövlam Hüseynligilə rayondan bal gətirib satırlar. Bir balon götürüb yollandım M.Hüseynligilə. Balonu balla doldurtduranda başım kənd həyatı ilə bağlı söz-söhbətə necə qarışdısa evdən çıxanda balın pulunu verməyi belə unuduram. Evdə yadıma düşdü ki, balın pulunu ödəməmişəm. Telefonun dəstəyini qaldırıb M.Hüseynliyə zəng vurub dedim:

-Ay qağa, belə iş olar? Xəbərin varmı, qonağın pulunu ödəmədən aradan çıxmışam.

M.Hüseynli cavab verdi ki, əşi, sən qonaq bildiyinlə o qədər aranı dağa, dağı arana daşıdın ki, bir də baxdıq yoxsan. Evdəkilərdən soruşanda dedilər:

-Mövlam, o didərgin şair qardaşın elə kövrəlmişdi ki, istəmədi sən onu o vəziyyətdə görəsən. Elə sağ olun deyib qapıdan çıxdı. Dedim:

-Hə, düz deyirlər, qağa. Səni o məqamda məyus etmək istəmədim. Sağlıq olsun, görüşərik.

Üç gündən sonra M.Hüseynli ilə görüşüb balın pulunu, bir də aşağıdakı şeiri ona verdim və dedim:

-Mövlam, məni cavabsız qoyma, görünür bu bal əhvalatı tarixə düşməli imiş.

"Ballı qaya"lara çatmayır əlim,
Dindirsən həm içim, həm çölüm ağlar.
Yadıma düşdükcə bükülür belim,
Yolları bağlanan o qərib dağlar.

Zənbur çiçəkliydi yalım, yamacım,
Şəkərdən, baldanmı söz-söhbət açım?
Qədərdən, qismətdən de hara qaçım?
Viranə qalıbdır arılı bağlar.

Ulu Zəngəzurum ağır dərd olub,
Daha ağlım itib, gözüm dörd olub.
Tanrının qəzəbi bizə sərt olub,
O bunu, bu onu gəzib soraqlar.

Əsir alınmışıq, əsir olmuşuq,
Kölə, ələbaxan, yesir olmuşuq,
Dönüb ayaqaltı, həsir olmuşuq,
Azmı sinəmizə çəkildi dağlar?

Kimlərdi alveri ortaya atan,
Yada torpaq verib, aranı qatan?
Nə mən bal alanam, nə sən bal satan,
Varımız ürəkdi, haqq deyib çağlar.

Yaddaşdan olmuşam, başına dönüm,
Bal nədi, pul nədi ona güvənim.
Sənintək dostlarsız olmasın günüm,
Olmasaq dünyanı haqsızlıq haqlar.

08.12.1998.

M.Hüseynli də məni çox gözlətmədən aşağıdakı şeiri yazıb mənə təqdim etdi:

Nə zamandı üzü dönüb dünyanın,
Qismətimiz qalıb dağlar dalında.
İştahamız əcəb vaxtda oyanıb,
Şəkərin də dadı qaçıb, balın da.

Canım qardaş, bağlı bəndlər yarılar,
Qərib qollar şirin cana sarılar,
Gələn il də şirə çəkər arılar,
Zəngəzurun qayasında, yalında.

Biz uca durmuşuq puldan, paradan,
Bu alver dərələr salar aradan.
Bir də nə mən satan, nə də sən alan, -
Gözümüz yoxdur ha dünya malında.

An var ki, bir batman baldan şirindir,
Salam var - dövlətdən, maldan şirindir.
Sükut var - qəbirdən, gordan dərindir,
Dərdlərə tor atıb fikrə dalanda.

Könlümüz qəmlidir, qaşlar düyünlü,
Nə fərqi - Həsənli, ya Hüseynli?
Bal nədi, pul nədi, ay mənimgünlü,
İstəsən, qurbandı baş da yolunda.

11.12.1998

GÜNAHLAR ÇOXALIR, MƏRHƏMƏT İTİR

Bahara vurğun ol, payız ötməmiş,
Vədəsiz şaxtalı qış nəyə gərək.
Bir daş qoymadınsa bir daşın üstə,
Arxadan atdığın daş nəyə gərək.

GƏRƏK

Bahara vurğun ol, payız ötməmiş,
Vədəsiz şaxtalı qış nəyə gərək.
Bir daş qoymadınsa bir daşın üstə,
Arxadan atdığın daş nəyə gərək.

Dönməzlər itirməz bərkdə özünü,
Qoru fəlakətdən bu yer üzünü,
Ümidsiz, inamsız sıxma gözünü,
Yersiz axıtdığın yaş nəyə gərək.

Artır ətək tutan, ətək yalayan,
Döşləşməz şər ilə quyruq bulayan,
Ağrıya-acıya sipər olmayan,
Yaytək gərilməyən döş nəyə gərək.

O başa baş demə qapaz dəyirsə,
Əyilib milləti, xalqı əyirsə,
Vətənin dərdini düşünməyirsə,
Qoltuqda gizlənən baş nəyə gərək.

Həsənli, çox iş var müşküldü hələ,
Ömrünü, gününü sovurma yelə,
Xeyrin dəymədisə torpağa, elə,
Yüz il yaşadığın yaş nəyə gərək.

ŞURNUXUNUN MEŞƏSİ

Eyni adlı şeirin müəllifinə

Şurnuxunun* meşəsi,
Dünyanın ən sehirli
Cənnətməkan guşəsi.
Çətin bir də, ya qismət,
Əlim ora çatası,
İzim ora düşəsi.

Dədə palıd ağaclım,
Söyüd, çinar bitirməz.
Naxışı tanrıdandı,
Özgə naxış götürməz.

Şurnuxunun meşəsi,
Girov düşən yaşılım.
Qucağından kənara,
İstəməzdim atılım.

Yağılar güllələyib,
Kəsdilər sağ-solunu.
Cığırlara od vurub,
Bağladılar yolunu.

Soxuldular qoynuna,
Qudurmuşlar itdilər,
Çiyələk qızlarını,
Çöl-çəməndən etdilər.

Xal düşdü gül-çiçəyə,
Otlara qan çiləndi.
Bənövşəli kollara,
Mərmilər səpələndi.

Ceviz ağaclarını,
Kökündən qopartdılar.
Aşdı palıd, qopdu vən,
Qovağı partlatdılar.

Şəhid oldu yol boyu,
Körpə ağcaqayınlar.
"Otladılar" meşəni,
Cütayaqlı qoyunlar.

Gözəlliyi duymamaq,
Vəhşi, nadan peşəsi.
Faciəylə üzləşdi,
Şurnuxunun meşəsi.

Can verdi hər bir ağac,
Yaralı insan kimi.
Fəqət, yaşayır onlar,
Can evimdə, can kimi.

***Şurnuxu - Zəngəzur mahalında kənd adıdır.**

«ALLAH ADAMI»

Məscidə gedirsən, namaz qılırsan,
İbadət edirsən daim o yerdə.
Tanrıdan ilahi bir güc alırsan,
Haqdan danışırsan xeyirdə, şərdə.

Görürsən hacıdı aqil, nadan da,
Allah bu işlərə göz qoyur amma.
Haqsızlıq edəndə, haqqı dananda,
Bilirsən nə edər Allah adama?!

Qurana əl basıb and içməyin var,
Üzdə saflığına inanır hamı.
Sağına, soluna keçir adamlar,
Çoxdu sənə deyən: "Allah adamı".

Sən haqdan danışıb cibə girəndə,
Qorxmursan Quranın ayələrindən?
Sən rüşvət alanda, rüşvət verəndə,
Quruyub yerimdə mat qalıram mən.

Halal olan işə haram qatırsan,
Haramla dəyişir ağzının tamı.
Günahlar içində itib-batırsan,
Allahdan qorxsana, "Allah adamı"?!

2009

MƏNƏ DİKBAŞ DEYƏNLƏRƏ

Baş endirib şöhrət üçün əyilən,
Yumağa dön, iynədən keç, üzül sən.
Başım dikdi, haqqı danan deyiləm,
Qeyrətsizsən, haqqı-nahaq söyləsən.

Dik başımdan qorxuya düş, qorxuya,
Baş əyməkdi səni qoyan pis günə.
Babəkimi de kim verdi yuxuya,
Kimlər gəlib sahib oldu mülkünə?

Baş əyməklə nələr, nələr itirdik,
Nəsimimiz diri-diri soyuldu.
Baş əyməklə dərdlər, qəmlər bitirdik,
Torpağımız nahaq qanla yuyuldu.

Baş əyməklə nə qazandıq de yaddan?
Dön qılınca, en yağının başına.
Ona-buna əyilmə sən, a nadan,
Əy başını torpağına, daşına.

Haram olsun o qamət, o boy sənə,
Əl ətəkdə girlənirsən sancılı.
Dikbaşlığım dərd olmasın qoy sənə,
Dağlara bax oxtək göyə sancılıb.

Harda olsam vecsiz başa enəsi,
Əzəmətli sərt qayayam, sal daşam.
Vətənimin haqq səsiyəm, haqq səsi,
Onun üçün əyilməzəm, dikbaşam.

1978

LAQEYDLİK

Göz yumursan görürəm ki, hər bir işə,
İstehzayla baxmaqdasan yüksəlişə.
Gördüyünü görməyirsən, kor kimisən,
Deyiləni eşitmirsən, kar kimisən.
Hazırına sən şəriksən nədən ancaq,
İç üzünü görən yoxdur bəlkə, qoçaq?
Bax neçə ki, tutmayıblar qulağından,
Su içirkən bizim həyat bulağından.
Ağ eləmə, bulandırma bu bulağı,
Burax getsin xalqa burun sallamağı.
Arzuların ürəyində uyumasın,
İşdən-gücdən əl-ayağın soyumasın.
Vaxt var ikən qayna-qarış işimizə,
Laqeydlik gərək deyil axı bizə.
Sən insansan, nə dəmirsən, nə də ki daş,
Gör nə gözəl bir torpaqda
yaşayırıq, ay vətəndaş!

1975

DÜNYA DÜZƏLƏRDİ…

Dünya düzəlmir ki, düzəlmir, baba.
M.Araz

Gedir sərt oyunlar bu işə matam,
Zamanın suları bulanır başdan.
Dağılır bu dünya, dağılır, atam,
Qurulan hiylədən, atılan daşdan.

Günahlar çoxalır, mərhəmət itir,
Saxtalıq kök atıb enir dərinə.
Gül-çiçək əkirik qanqallar bitir,
Pislər peyda olur yaxşı yerinə.

Xəbislik, rəzillik çıxıbdır dizə,
Əyrilər əyilib başa keçirlər.
Əyrilər hər yerdə dürtülür gözə,
Dünyanın işlərin ölçüb-biçirlər.

Dünya işlərindən baş tapmayanlar,
Başları qatmaqla vaxt itirirlər.
Zəhərli gürzələr, bu soyuq qanlar,
Boy verib yalana dərd bitirirlər.

Gülür üstümüzə əməllərimiz,
Sığışa bilmirik bu yerə, göyə.
Dünya düzəlmirsə günahkarıq biz,
Dünyaya cavabdeh olmuruq deyə.

Dünya əzəl gündən düz olub elə,
Dünya düz olardı olmasaydıq yad.
Çirkin əllər ilə dağılır hələ,
Dünya düzələrdi… Qoymurlar, ustad!

KİŞİLƏR

Pozacaq vilayəti bəzi bəzzad kişilər,
Olmaya vilayətdə böylə bərbad kişilər.

Paho… qarışdı aləm, sona yetdi işimiz,
Batacaq qulağımız hədər getdi işimiz,
Cibgir, quldur çoxalıb daha bitdi işimiz,
Pozacaq vilayəti bir para yad kişilər,
Olmaya vilayətdə böylə bərbad kişilər.

Cəmlənib, nəşələnib canbir sirdaş olurlar,
Doğmalaşıb, yalaşıb guya qardaş olurlar.
Tutmayır söhbətləri hərdən çaşbaş olurlar,
Pozacaq vilayəti daraybidad kişilər,
Olmaya vilayətdə böylə bərbad kişilər.

Bir də gördün burnunu göylərə tutdu biri,
Birinin kölgəsində yıxılıb yatdı biri.
Biri dartdı özünü, yıxılıb batdı biri,
Pozacaq vilayəti tini "abad" kişilər,
Olmaya vilayətdə böylə bərbad kişilər.

Söz düşəndə namusdan, qeyrətdən dəm vururlar,
Yarıçılpaq kəsdirib eyvanlarda dururlar,
Bar edib evlərini minbir büsat qururlar,
Pozacaq vilayəti gülməli "şad" kişilər,
Olmaya vilayətdə böylə bərbad kişilər.

Düşür dava görürsən kor bıçağın üstündə,
Göz çıxır, baş yarılır key uşağın üstündə,
Küt başlar düşünməyir cüt ayağın üstündə,
Pozacaq vilayəti qazanıb «ad» kişilər,
Olmaya vilayətdə böylə bərbad kişilər.

İnsan olan çəkinər, bir utanar, a bala,
Son qoyar cəhalətə, səs-küyə, qalmaqala.
Həsənli yol azanı səsləyir nurlu yola,
Pozmasın vilayəti qılsın imdad kişilər,
Olmaya vilayətdə böylə bərbad kişilər.

1992

KİŞİ

Şəriətdən xəbəri yox,
Dinimizə yaddı kişi.
Uyub gecə barlarına,
Arvadını atdı kişi.

Şortik geyibdir əyninə,
Ar-namus gəlmir eyninə,
Saç uzadıb kürəyinə,
Sanırsan arvaddı kişi.

Göz-qaş atır lotu kimi,
Yalmanır rus atı kimi,
İpi qırıq zatı kimi,
Tökülür, bərbaddı kişi.

Şərab gilləyə-gilləyə,
Meylini salıb çöllüyə,
Tuş gəlib qəfil gülləyə,
Arzusuna çatdı kişi.

VAR

Gələnə, gedənə qapımız açıq,
Süfrəmiz başında ögey, yad da var.
Durur Səhl Sumbat, durur Yalıncıq,
Başımıza gələn bəla yadda var.

Ağrı-acıların odam içində,
Sıxılıb qalmışam odam içində,
Qaldı nəyim vardı o dam içində,
Qeyrət tapdalandı, batan ad da var.

Şəhid məzarına döndü mərd dinən,
Yoluna qoymuruq işi mərdinən,
Çıraqla gəzimmi indi mərdi mən,
İçimdə bir yanğı, alov, od da var.

Həsənli, qəraib millətik, kişi,
Yağının üzünə güllük kişmişi,
Nə hiş-hiş anlarıq, nə də kiş-kişi,
Yıxılan yerimiz - arvad, ya da var.

"ALİM" OLDU

Çox düşündü, nə etsin,
Şöhrət tapsın, ad alsın.
Tutsun hansı ətəkdən,
Necə qalxsın, ucalsın.

Fürsət tapdı, əyildi,
Sanki doğanaq oldu.
Möhtərəm bir adama
Gedib o yamaq oldu.

Piyadanın biriydi,
Yedəklərdə süründü.
Alimlər cərgəsində,
Bir gün o da göründü.

Salamı salam kimi,
Almaz, özün dartandı.
Elmi dayaz, müştəbeh,
Sözdə boğaz yırtandı.

Tanıyanlar heç ona,
Gəlməz bir addım yaxın.
Adamlığı olmayan,
"Alim" olana baxın!

TANIMAQ İSTƏSƏN

Özünü bilməməzliyə vurub "səni tanımadım" deyən bir tanınmaza

Mahalım Zəngəzur, yurdum Qaradaş*,
Orda doğulmuşam, ordanam, əyyaş!
Adım ustadlardan qalma bir addır,
Vətənə yad olan, mənə də yaddır.

Yurduna biganə, ay qanmaz adam,
Silsənə gözündən dumanı, çəni.
Mən səni tanıdım, tanınmaz adam,
Sürgünə düşməzsən tanısan məni.

Neynirsən soruşub təvəllüdümü,
Nə ayım, nə ilim dürüst deyildir.
Amma itirməyib mən ümidimi,
Arxivlər gəzirəm otuz beş ildir.

Çox şey qarışdırıb dolaşıq illər,
Başsızlar özlərin başçı sayanda.
Kökü bilinməyən baltalı əllər,
Köklü adamları baltalayanda.

İtsə də kötükdən ad da, ünvan da,
Soyu elə bəlli doğulanların.
Gördük aqibətin zaman-zaman da,
Özü öz qanında boğulanların.

1998

***Qaradaş - Qubadlı rayonunun Yuxarı Cibikli kəndində yer adıdır.**

BİR REDAKTORA

Başını girləyən, a baş redaktor,
Sağına, soluna bax, bir yazanda.
Sözü çaşbaş görən, a çaş redaktor,
"Eynəyi gözünə tax bir" yazanda.

Heyranam səndəki ağıla, başa,
Düşmüsən tarixə, qurdürək kişi.
Qaranı ağ yazıb, gəlmisən xoşa,
Qırmızı kitabın mübarək, kişi!

Qırmızı kitablı şöhrət düşkünü,
Paraya aldanıb uymusan yada.
Çoxdan gözləyirdin böylə bir günü,
Qızara-qızara yaşa dünyada.

POEZİYA GECƏSİNDƏ

Poeziya, poeziya…
Könüllərdən, könüllərə
axan işıq, qonan ziya -
söz gecəsi,
saz gecəsi.
Sözə dayaq
bir ərköyün
yaz gecəsi.
Söz deməkçün
pərən-pərən
salmışdılar
şairləri.
Söz deməkçün
nəzarətə
almışdılar
şairləri.
Üzdənirdi
üzdən iraq
itmiş kimi
tapılanlar.
O gecənin
oyununda
şan-şöhrətə
qapılanlar…

Varmış sözün
darğaları,
Astaqədəm
yorğaları.
Bığıburma,
enlikürək
ağaları,

Sözübütöv
şairləri
Sözü boyat
çağaları.
Söz deməkçün
sifarişlə
konsert idi
bax o gecə.
Gözdən pərdə
asmaq niyə,
Ax o gecə,
ax o gecə!..
Bir tərəfdə
senzuraçı,
Sözə yamaq
o zurnaçı,
Kələ-kötür
gedişində.
Kəlləçarxdı
öz işində.

Bir tərəfdə
din-imansız,
tanrısına
inanmayan,
Qaş-göz ilə
qərar verən,
Ada, soya
barmaq qoyan.
Bir tərəfdə
üzü sürtük,
özü saxta,
sözü yalan,

"El", "El" deyən
eldən uzaq,
kitab-kitab
sözü plan.
Nə deyəsən
beləsinə!
Gəlsə sözün
qülləsinə,
Min yol ölüb
diriləndi.
Başa keçib
sürüləndi.
Bir tərəfdə
söz sərrafı,
Ləngər vurur,
öz yerində.
Narahatdı,
deyilməmiş
söz yerində.
Bir tərəfdə
misra-misra
yananların
işıq saçan
baxışları,
Əritməkdə
dəbdən düşən
Buztək soyuq
çıxışları.
Bir tərəfdə
hər sözü nur,
Özü büllur,
Sırtıqlar yanında
bir az sıxılan,

Təpədən dırnağa
şair doğulan; -
"Şairlər çoxalır, nə eybi var ki,
Bu sevinc heç kəsi dərdə salmasın.
Şairlər çoxalır, çoxalsın təki, -
Təki şerimizdən od azalmasın" -
deyən şair.
Haqsızlığa
yumruğunu
düyən şair.

Biri də var
zalım oğlu
göydəndüşmə
"istedad"dı.
"Yuxarıyla
nəfəs alır,
Aşağıya
hələ yaddı".
Öhdəsindən
əcəb gəlir
öz işinin,
Gələcəyi
var kişinin.
Təkcə ona
şair deyib
sevəcəklər,
duyacaqlar.
Bu gecədən sonra yəqin.
Heykəlini
qoyacaqlar.

BACIOĞLU

Bacım oğlu Həmiş Qarayevə

Ən ağır günahlar nədənsə elə,
Ən yaxın bildiyin kəsindən gəlir.
Ülvi Bünyadzadə.

Yer yarıldı elə bil,
Girdim yerə, bacoğlu.
Düşmənin də düşməsin,
Nahaq şərə, bacoğlu.

Dərdi qəmə qatmışam,
İşi, gücü atmışam.
Gəl gör necə batmışam,
Soyuq tərə, bacoğlu.

Könlüm dözməz bu yükə,
Qoyma dayın qəm çəkə,
Yaraşarmı heç ləkə,
Suçsuz ərə, bacoğlu?!

Töhmət deyiləm başa,
Vurulmadım daş-qaşa.
Bər-bəzəyə, naxışa,
Tülə, zərə, bacoğlu.

Həsənli tam, bütündü,
Əsrlərə bir ündü,
Qaçaq-quldur üçündü,
Uçrum, dərə, bacoğlu!

1993

İNDİ

O kimsəsiz, xaraba yurd yerində,
Zalım fələk, tütəyini çal indi.
Orda yatan tarixim var dərində,
Savaşdayam, başım çəkir, qal indi.

Kirvə etdik adamyeyən xortdanı,
Göz yumduqca tapdadılar haqqımı.
"Dövlət olub" çıxartdılar hoqqanı,
Dünya susur, dillər olub lal indi.

Dağ-daşımı duman basıb çən alıb,
Ətəyində qarğa-quzğun köç salıb.
Qovan qovub, qaçan qaçıb, yurd qalıb,
Ay Həsənli, xəyallara dal indi.

DÜŞÜB

Yadlar girib aramıza,
Araya qan-qada düşüb.
Ərşə qalxan səsimizdən,
Yer üzünə səda düşüb.

Fil qulağında yatmışdıq,
Özgəni uca tutmuşduq.
Özümüzü unutmuşduq,
Kimliyimiz yada düşüb.

İçimizdə var yavası,
Alınmayıbdır havası,
Bitmir vəzifə davası,
Kreslolar dada düşüb.

Ağ eyləyir çox tümbətün,
Pozulur millət günbəgün.
Hesabı yox acın, lütün,
Dilənçilik moda düşüb.

Sonu yoxmu zülmün görən,
Kef-damaqda dövran sürən.
Azadlıq üçün can verən,
Zavallı fəryada düşüb.

1992

ŞƏHƏRLİ OĞLANLAR, ŞƏHƏRLİ QIZLAR

Özünü şəhərli adlandıran bəzi oğlan və qızlar tələbəlik illərində kənd mühitindən gələn gənclərə yuxarıdan aşağı baxırdılar. Bu hal məndə ikrah hissi doğurardı.

Mən bir kənd oğluydum, ürəyi təmiz,
Arzusu, məramı, diləyi təmiz.
İcad eylədiniz hər kələyi siz,
Şəhərli oğlanlar, şəhərli qızlar.

Bir yol başlamışdım cığırdan, izdən,
Saflıq gətirmişdim dərədən, düzdən,
Bütün günahlarım başlandı sizdən,
Şəhərli oğlanlar, şəhərli qızlar.

Paxıllıq nə olan şeydi bilməzdim,
Qocaya, cavana bic-bic gülməzdim.
Qınaq götürməzdim, ləkələnməzdim,
Şəhərli oğlanlar, şəhərli qızlar.

Lilli suyunuzdan içdim lilləndim,
Uddum havanızı, çil-çil çilləndim.
Çəkdim dərdinizi dil-dil dilləndim,
Şəhərli oğlanlar, şəhərli qızlar.

Yersiz hər yetənə lağ eylədiniz,
Təpəni döndərib dağ eylədiniz,
Aşıb həddinizi ağ eylədiniz,
Şəhərli oğlanlar, şəhərli qızlar.

Cidanı çuvalda çox gizləyimmi,
Sizli günlərimi əzizləyimmi?
Qaytarın özümə təmizliyimi,
Şəhərli oğlanlar, şəhərli qızlar.

Yanımdan sükutla ötməyin belə,
Torpaqda yararsız bitməyin belə,
Sabaha əliboş getməyin belə,
Şəhərli oğlanlar, şəhərli qızlar.

1973

İKİ ROLDA

Bilirəm kimdi, nəçidi,
Gəzir halalı haramda.
Söz aparıb, söz gətirir,
Müdirlə mənim aramda.

Eyni vaxtda iki rolu,
Çox ustalıqla oynayır.
Hərif özünü aktyor,
Həyatısa səhnə sayır.

***

Hər oturub duran həmən
Vaxtdan, baxtdan gileylənir.
Deyinir Allahın danan,
Ağzı dualı söylənir.

Göz yumub yana keçimmi?
Diyarbadiyar köçümmü?
Haqsızlıq yeyir içimi,
Elə bil içim teylənir.

Kəsən kəsir, asan asır,
Yeyən yeyir, susan susur,
Biri başda başdan basır,
Biri ayaqda əylənir.

Bezdik nadan buyruğundan,
Ürəklərin soyuğundan.
Adam var ki, ayağından,
Adam var başdan iylənir.

Başa çəkib naşımızı,
Gözləyirik qışımızı,
Qaldırmırıq başımızı,
Boynumuz yaman piylənir.

UTANMIR

Qazanc yeri bilir sözü sözbazlar,
Çoxu cızığından çıxır, utanmır.
Nə vicdan gözləyir, nə qeyrət, nə ar,
Arsızlar könüllər sıxır, utanmır.

Çəkib ucuz sözün bazarda satan,
Şan-şöhrət dilənib qan tərə batan.
Min cürə tərifə, sığala yatan,
Ağlayan gözlərə baxır, utanmır.

Sanki xəbərsizdir viran elindən,
Havaya sovrulur sözlər dilindən,
Qaçqının, köçkünün alıb əlindən,
Payını beşəlli tıxır, utanmır.

Həsənli, haqq yolda gəz sabahını,
Dinlə el-obanın qəmli ahını.
Üzlər var, ilahi, öz günahını,
Özgənin üstünə yıxır, utanmır.

NAİL KİŞİ

Adını Nail qoyduğum çirkin əməlli bir işbaza

Ayə, məzən olsun, şirin dil töküb,
Sındırdın yolumda baş, Nail kişi.
Əcəb gopçusanmış, əziyyət çəkib,
Eylədin işləri yaş, Nail kişi.

Göy işıq yandırıb sənə yol açdım,
Bu da bir səhv idi əfv elə, çaşdım,
A tövbə, heç böylə yanılmamışdım,
Yalanın, planın xoş, Nail kişi.

Get-gələ salmaqla gördün işini,
Gərək tanıyaydın, kişi, kişini,
Sırıdın mənə də köhnə peşəni,
Buraxdın arada quş, Nail kişi.

Ayıq bir günün yox, üzün qaradı,
Zəng etdi dostlar da səni aradı,
Sən öl, səni yıxan elə paradı,
Xərclə özün üçün, nuş, Nail kişi.

Qaçdın öz nəfsinin qaçdın dalınca,
Dağılsın "kefxanan" öylə qalınca,
Yaşayıb aləmdə rüsvay olunca,
Kaş daş doğulaydın, daş, Nail kişi.

2001

PAPİROS

Dağ kimiydim, əridib yorğana salmış papiros,
Pis günə qoymuş məni, andıra qalmış papiros.

Allandım nəşəsinə, nə bilim zəhrimar imiş,
Çaldı məni gör neçə əfi ilan, şahmar imiş,
Duman kimi çökməyi, oda dönməyi var imiş,
Dəmirtək iradəmi əlimdən almış papiros,
Pis günə qoymuş məni andıra qalmış papiros.

Heç belə bilməz idim, astaca girmiş qanıma,
Titrəyir əl-ayağım, vəlvələ salıb canıma,
Getmərəm ona yaxın, and içirəm vicdanıma,
Yol tapmış ürəyimə, beynimə dolmuş papiros,
Pis günə qoymuş məni andıra qalmış papiros.

Ayılmadım vaxtında qoşuldum başıboşlara,
Lənət mənə gələydi tay olanda əyyaşlara,
Mat qalmışdım bir zaman gözümdən axan yaşlara,
Qoparıb dişlərimi, saçımı yolmuş papiros,
Pis günə qoymuş məni andıra qalmış papiros.

Çəkmərəm əsla onu, min dəfə tövbə etmişəm,
Şeytana daş atmışam, ocağa, pirə getmişəm.
Yaradana min şükür, tərgitmişəm, tərgitmişəm,
Qanımı soran zəli, qənimim olmuş papiros,
Pis günə qoymuş məni andıra qalmış papiros.

GÖRÜRƏM

Bu nədir, ey həyat, sön, ey ilhamım,
Əhdini, andını danan görürəm.
Daha çiçək açmaz, çin olmaz arzum,
Haqqı tüstülənən, yanan görürəm.

Namərdlər çəkilir yuxarı başa,
Naxələf çıxan var dosta, sirdaşa,
Qənim kəsilibdir qardaş-qardaşa,
Tutub görən gözü al qan, görürəm.

Düzlükdən danışır rüşvət alanlar,
Ərzi bürüməkdə hiylə, yalanlar,
Təqib olunmaqda arif olanlar,
Qanmazı "ağıllı", "qanan" görürəm.

Dillərdə bir quru sözdü həqiqət,
Doğulur günbəgün saxta məhəbbət,
Qızılla ölçülür indi səadət,
Sevgini qəlblərdə donan görürəm.

Kütləşib ağıllar, enmir dərinə,
Tapdanır, yox olur adət-ənənə.
Dillərə yük olub bir söz - "mənə nə",
Korlanır büsbütün cahan görürəm.

İnsan insan üçün fitnə, fəlakət,
İnsan insan ilə qılmayır ülfət,
İnsaf yoxa çıxıb, itib mərhəmət,
Çalxanır dəryatək zaman görürəm.

Gündə bir siyasət eşidir qulaq,
Dövlət tənəzzüldə, qanunlar çılpaq.
İcrasız fərmanlar qalaqbaqalaq,
Enib taxta-taca duman görürəm.

Ruhumu sarsıdır gözlərdəki nəm,
Pozmaqda dünyanı huşsuz, ağlı kəm,
Həsənli, tək sənə qalıbmı dərd, qəm,
Səsində yenilməz üsyan görürəm?

1988

OXUYAN TAPILMIR BEYNƏLMİLƏLİ

Bu ölkə gör necə qarışıb, Allah,
Yelqovan xəbərlər atlı çapardı.
Zamanın kələfi dolaşıb, Allah,
Tükəndi mərhəmət, insaf qurtardı?

Millət millət ilə çıxıb savaşa,
Millətin millətdən xəbəri yoxdur.
Təhlükə yaranıb yuxarı başa,
Köhnənin düzəlmək təhəri yoxdur.

Sonu olacaqmı bu qırhaqırın?
"Sabaha gedən yol" döndü geriyə.
Yoxmuş bünövrəsi o gurhagurun,
Qranit heykəllər sökülür, niyə?

Hanı SSRİ, qəti qələbə,
Dünyanı lərzəyə salan o ölkə?
Qaçanlar üz tutur Misrə, Hələbə,
Yerüstü zəlzələ baş verib bəlkə?

Bu ölkə gör necə qarışıb, Allah,
Tufan gözləmirmiş tufan yaradan.
Kürkünə bit-birə daraşıb, Allah,
Baş aldı "ala baş" çıxdı aradan…

Kimə ağlamalı, kimə gülməli?
Kremlin məhvəri kökdən laxladı.
Oxuyan tapılmır beynəlmiləli,
Azadlıq dalğası ərzi haqladı.

İş-güc sahibləri işini atdı,
İşsizlər boşluqdan qeybət qırırlar.
"Başdan bulanan su ayağa çatdı",
Başda başbilənlər baş sındırırlar.

1990

***

İlan kimi çalır məni,
O bir yandan, bu bir yandan.
Dil-ağıza salır məni,
O bir yandan, bu bir yandan.

Nə ipə, nə sapa yatır,
Nahaq haqqa böhtan atır.
Dost-dost deyib yada satır,
O bir yandan, bu bir yandan.

Ha yol göstər əqli çaşa,
Ha ağıl qoy huşsuz başa,
Dönüb səni basar daşa,
O bir yandan, bu bir yandan.

Xeyirsizdən doğular şər,
Nankorunu neynir bəşər.
Tanrısına asi düşər,
O bir yandan, bu bir yandan.

SOYUQ İNSAN

Soyuqluğu iliyinə işləyən,
Soyuq insan gördüm bu gün div boyda.
Görməmişdim işləməyib dişləyən,
Qarınqulu, gödəngüdən, piyada.

Həya etməz vətənindən, elindən,
Qamarlayıb hey qoruyar öz postun.
Təngə gəllik beləsinin əlindən,
Bilmək olmur düşmənindir, ya dostun.

Gəlişiylə duman, çəni gətirər,
Düşünərsən fikir alar üstünü.
Soyuqluğun dildə gizlər, itirər,
Gülüşüylə örtər onun üstünü.

Nə əl verər, əldən tutar qaldırar,
Nə vətənə açıq gözlə baxar o.
Çiçəklənən arzu olsa soldurar,
Şaxta olub qış taxtına çıxar o.

Baxışıyla qar yağdırar üstünə,
Salam versən bir əlini dondurar.
Sən yanarsan o göz yumar tüstünə,
Duruşuyla buz heykəli andırar.

1973

OLMUR

İşlərimiz yan üstədir,
Öhdəsindən gəlmək olmur.
İlahidən gəlir bizə,
Bu bəlamı - bilmək olmur?!

Başa keçir qal oğlu, qal,
Dərs verməkdə dəyməmiş kal.
Dil-dil ötür dünənki lal,
Gülməlidi, gülmək olmur.

Hara gedir millət belə?
Görməmişdik zillət belə,
Xalqı tutub ölət belə,
Ölən ilə ölmək olmur.

Həsənli, döz di bu dərdə,
Vətən didilir əllərdə,
Qan içində göy də, yer də,
Qanlar axır, silmək olmur.

1990

DONUR TƏBƏSSÜMÜM DODAQLARIMDA

Saf sevgi var, xoş arzu, xoş diləkdə,
Sevgi üçün açılır hər çiçək də,
Səni sevən, sənə yanan ürəkdə,
Od arayıb, köz eşməyin nədəndir?

İNSAFIN OLSUN

Daha bacarmıram özüm-özümlə,
Əlimə əl uzat, insafın olsun.
Söz var deyəmmirəm, gülüm, gözümlə,
Görüşə qədəm at, insafın olsun.

Nə qədər gözümüz yol çəkəcəkdir,
Bu zülmü, sitəmi az mənə çəkdir.
Bu sevgi qəm, kədər bitirəcəkdir,
Dilinə şəkər qat, insafın olsun.

Dil-dilə həsrətdir, dodaq-dodağa,
Qol-qola həsrətdir, yanaq-yanağa,
Gülən gözlərinə olum sadağa,
Mənə meydan yarat, insafın olsun.

Həsənli neyləsin, hələ zalımsan,
Elə can alırsan, elə zalımsan,
Belə rəhimsizsən, belə zalımsan,
Ürəyim verdi çat, insafın olsun.

DE

Gül olub bitmisən baxışlarımda,
Heç səni mən ata bilərəmmi, de?
Qalmışam bir eşqin yoxuşlarında,
Heç sənsiz danışıb-gülərəmmi, de?

Nə olar mənimtək coşub-çağlasan,
Yaralı könlümə məlhəm bağlasan,
Bu ağlar könlümə baxıb ağlasan,
Gözünün yaşını silərəmmi, de?

Kimdi o bəxtəvər gözündən gülür?
Sevir, sevgisiylə sevilə bilir,
Deyirsən xəyalın yuxuma gəlir,
Sevməsəm yuxuna gələrəmmi, de?

Oynadıb qəlbimi durma qıraqda,
Gəzmə Həsənlidə günah bu haqda,
Yolunu gözləyib səsdə, soraqda,
Sənə qovuşmadan ölərəmmi, de?

GEDİRSƏN

Nə vecinə həsrətini çəkən var,
Ürəyimi yenə üzüb gedirsən.
Yollarına gözlərini dikən var,
Ayrılığa necə dözüb gedirsən?

İnsafa gəl, həyalıdan həyalım,
Rəvamıdır de təklənim, tək qalım,
Söylə mənə qəsdin nədi, a zalım?
Yanıq verib, şəstlə süzüb gedirsən.

Görmüsənmi gözlərimi dolanda,
Eşqin ilə xəyallara dalanda,
Qorunursan nədən yaxın olanda,
Olmayanda məni gəzib gedirsən.

Sərt dolanma məhəbbətdə üzgünlə,
Ürəyimi oxu ürək güzgünlə,
Qur sevgini Həsənlitək düzgünlə,
Gör bir kimdən, kimdən bezib gedirsən!..

2001

NEYLƏYİM

Oğrun-oğrun mənə baxan gözəlin,
Gözlərinin dəlisiyəm, neyləyim.
Özün oda, közə yaxan gözəlin,
Fəryadıyam, naləsiyəm, neyləyim.

Gizli-gizli hər gələndə yanıma,
Baxışından bir od düşür canıma,
Mələkzadə elə girib qanıma,
Qara qulu, köləsiyəm, neyləyim.

Vurğunuyam, duymasa da, duysa da,
Qıymam ona, o canıma qıysa da,
Sevib, sevib yarı yolda qoysa da,
Ayağına gələsiyəm, neyləyim.

Subaylığın taxt-tacını devirib,
Gündüzümü qaranlığa çevirib,
Qollarının arasında can verib,
"Öl" deyəndə, öləsiyəm, neyləyim.

NƏDƏNDİR

"Gecələr ölülərimiz yuxuma girir"…
Bir sevgi məktubundan.

O dünənki sən deyilsən elə bil,
Dünənindən gen düşməyin nədəndir?
Sönüb odlu sevgi dolu baxışın,
Soyuq-soyuq görüşməyin nədəndir?

Bu idimi, gülüm, könül verməyin,
Ayıq-sayıq, oyaq ömür sürməyin?
Bəs deyilmi yatıb yuxu görməyin,
Ruhlar ilə dilləşməyin nədəndir?

Bəxtimizi yazan yazıb ağ, qara,
Özün saldın düşməz idim bu tora,
Öz-özündən qaçacaqsan de hara,
Özün ilə əlləşməyin nədəndir?

Saf sevgi var xoş arzu, xoş diləkdə,
Sevgi üçün açılır hər çiçək də,
Səni sevən, sənə yanan ürəkdə,
Od arayıb, köz eşməyin nədəndir?

NECƏ UNUDUM SƏNİ...

Gecə də, gündüz də xəyalınlayam,
Gözlərin gözümə dikili qalır.
Sahilsən, mən sənə can atan çayam,
Bir qüvvə hey səni əlimdən alır.

Donur təbəssümüm dodaqlarımda,
Seyrək görüşlərin çatmır dadıma.
Səsini duyuram qulaqlarımda,
Şəlalə gülüşün düşür yadıma.

Sevgi məktubların başımı qatıb,
Qəlbimdə ağrılar bitirmişəm mən.
Bilmirəm haradan mən səni tapıb,
Özümü, özümü itirmişəm mən.

Bu qədər yaxınkən uzaqsan mənə,
Düşdüyüm bu hallar əbəs ki deyil.
Guya heç əlim də dəyməyib sənə,
Sevən mən deyiləm səni elə bil.

Gözünə görünmür alovum, odum,
Od vurur qəlbimə hicranın əli.
Yad ikən doğmamsan, doğmakən yadım,
Mən necə unudum səni, ay dəli?!

SƏNİN SEVGİ MƏKTUBUN

"Bizim bu sevgimiz cinayətdir, məni gözləmə…" Məktubdan sətirlər.

Sevgi məktubunu oxudum yenə,
Gözəldir sevgidən söhbət açmağın.
Amma acı sözün dərd olur mənə,
Gülüm, olmayaydı hərdən sancmağın.

Sonuncu görüşdən qırx bir gün keçir,
Səndən xəbərsizəm, səndən xəbərsiz.
Bilsən gecələrim nə üzgün keçir,
De necə yatırsan məndən xəbərsiz.

Gəl, lalə yanaqlım, gir həyatıma,
Şirin dodaqların çəkir meylimi.
Mənim ünvanıma, mənim adıma,
Köç edən məktublar sevgi deyilmi?

Yolunu gözləyir açıq pəncərəm,
Baxaram yoluna boynu bükülü.
Eh, hardan biləsən qəm çəkirəm, qəm,
Yatağım dağınıq, otaq tökülü.

Yuxuma girirsən, gülüm, hər gecə,
Yatıb xəyalınla qalxıram yerdən.
Necə çıxacaqsan qarşıma, necə,
Hara qaçacaqsan sən bu şəhərdən?

Sevgi var yaşayır əsrlər ilə,
Sevgi var ötəri, sevənlər bilir.
Sənin mənə olan bu sevgin elə,
Yanlışsa, ən böyük cinayət imiş!..

1972

BİLMƏDİM

Uydum, naməhrəmin felinə uydum,
Girdi ürəyimə necə bilmədim.
Bağlandı gözlərim, saymazı saydım,
Mən ağı qaradan seçə bilmədim.

Demişdim sevərəm hilal qaşlını,
Sevdim sevilməzi, gözü yaşlını,
Neynirdim dilbilməz, başı daşlını,
Verdi əməyimi heçə, bilmədim.

Nə deyim tanrıdan gələn qədərə,
Çürütdüm bir ömrü boş, hədər yerə,
Şirin bir həyatım döndü zəhərə,
Çökdü gündüzümə gecə bilmədim.

Açdı aşkar etdi sirrimi elə,
Həsənli bir tale yaşadı belə,
Mən sən olammadım, münəccim lələ,
Başıma gələni öncə bilmədim.

YADIMA DÜŞÜRSƏN

Yadıma düşürsən… yox tabım mənim,
Sənsiz ötən ömür nəyimə gərək.
Könül sevdirənim, könül sevənim,
Dil açıb səninçün sinəmdə ürək.

Yadıma düşürsən… necə unudum?
Gen dünya zülmətdir sanki gözümdə.
Hardasan varlığım, qolum-qanadım,
Dön geri bir ümid tapım özümdə.

Yadıma düşürsən… yadına düşsəm,
Səni yetirərmi o yollar mənə?
Ah, bircə görüşsəm, bircə görüşsəm,
Bu acı həyatım bal olar mənə.

Ahda, fəğandayam, keçən yazdakı
Güllərə can atan o bülbül kimi.
Yadıma düşərsən bağçanızdakı
Ətrini aldığım qızılgül kimi.

Yadıma düşürsən o kəndqarışıq,
Uç bir göyərçintək, uç mənə sarı.
Ömrümə-günümə saçılan işıq,
Gəl sil taleyimdən qaranlıqları.

SEVGİ MƏKTUBU

Tanrı özü açıb onun baxtını,
Susur nədən o elimin sonası?
Görən onda insaf, mürvət yoxdumu,
Nə çəkirəm heç bilirmi anası?

Pəncərədən oğrun-oğrun baxanda,
Zalım məni göz-qaşıyla öldürür.
Qəsdi nədi yandırmaqda, yaxmaqda?
Eli mənə, gah özünə güldürür.

Bilməyirmi baş qoymuşam yolunda,
Beş addımda göz də qoymur köşkümə.
Sarsılmasın məktubumu alanda,
Dayaq olsun o həyalım eşqimə.

Öldürməkdi qəsdi məni bəlkə də,
Addım atıb bir yol çıxmaz görüşə?
Yanıq verib can bəsləyir kölgədə,
Boynubükük bənövşədi, bənövşə.

Qoy car çəksin bu sevgimi aləmə,
Vaxtın hədər bitirməsin o gözəl.
Sipər ollam ona gələn dərd-qəmə,
Tapıb məni itirməsin o gözəl.

1972

İSTƏRƏM

Deyiləm, ay gözəl, hissiz, duyğusuz,
Hər an vüsalına çatmaq istərəm.
Hicranın əlindən alıb mən səni,
Bir dəli sevdaya atmaq istərəm.

Qurbanam hər cürə oynuna sənin,
İzin ver sarılım boynuna sənin,
Nə olar bir girəm qoynuna sənin,
Baş qoyub sinənə yatmaq istərəm.

Gözlərim nur içir yanaqlarından,
Dodağım bal umur dodaqlarından,
Bəhrələn sevgimin qaynaqlarından,
Ömrümü ömrünə qatmaq istərəm.

Mələksən, mənimçün göydən enmisən,
Sanki süd gölünə girib çimmisən,
Ləpəli, dalğalı dəniz kimisən,
Mən səndə qərq olub batmaq istərəm.

O MƏKTUBLAR

Bir vaxt sənə qanadlanıb uçmuşdu,
Sevgi dolu, yığın-yığın məktublar.
Əvəzimdən sənə könül açmışdı,
Qəsd etdiyin, yandırdığın məktublar.

O məktublar duyğuların aynası,
Öpüb-öpüb sinən üstə qoydunmu?
O məktublar qəlbin sevgi dünyası,
Orda ürək çırpıntısın duydunmu?

Danma, sənə ünvanlanan sözlərin,
Yaddaşında silinməyən izi var.
Xəyalında o canlanan sözlərin,
Sinən üstə yanğısı var, közü var.

O məktublar külə dönmüş güllərin,
Həsrətini çəkəcəksən hələ sən.
Məktublara od vuran o əllərin, -
Sinirləri pozulmuşu elə sən.

DEMƏ

Ömrümə, günümə gərək bildiyim,
Qəlbimi ilantək çalanmış demə.
İlahi şahzadə, mələk bildiyim,
Dərsini iblisdən alanmış demə.

Alınma, ey könül, "gəlmədin xoşa",
Həmdəm ol, dərdinlə baş-başa yaşa,
Niyə vurulurdun o qəlbi daşa?
Sevgisi, istəyi yalanmış demə.

Oyunmu oynadı, qurğumu qurdu,
Şahidə çevrilib üzümə durdu,
Əlimdən aldığın başıma vurdu,
Kasıb gördü məni, "kalanmış" demə.

Qəza-qədər kimi tuşuma gəldi,
Bilmədim heç nəyi xoşuma gəldi,
Ağlıma gəlməyən başıma gəldi,
Bütün olacaqlar olanmış demə.

Həsənli, darılma, sevginlə öyün,
Hələ qarşıdadı əsil toy-düyün,
Odlanıb, aldanıb könül verdiyin,
O sevgi yarıda qalanmış demə.

1972

SƏNİN AD GÜNÜN

Bu gün ad günündür, düşünürəm mən,
Nə edim, yaxınkən uzağam səndən.
Kiminlə yanaşı əyləşmisən sən?
Zəng də gözləmirsən yəqin ki, məndən.

Bu gün ad günündür, təqvimə baxıb,
Qovrula-qovrula qalmışam sənsiz.
Dolu badələrin axrına çıxıb,
Tək-tənha xəyala dalmışam sənsiz.

Sən yoxsan, yanımda boş qalıb yerin,
Şəklinə baxıram, dolur gözlərim.
Bədbəxt sakiniyik biz bu şəhərin,
Yadına düşərmi əski sözlərim?

Bu gün ad günündür, könlüm darıxır,
Bu evdə sevgisən, səadətsən sən.
Səni ki, o evdə divarlar sıxır,
O evdə, o evdə bəxtəvərmisən?

İçdim sağlığına, bu axşam içdim,
Nəyinə gərəkdir bu sərxoş sənin?..
… Keçdim, evinizin yanından keçdim,
Pozdum sükutunu sizin küçənin…

Bu gecə yuxum da ərşə çəkilər,
Baxdım işıq gələn pəncərənizə.
O doğma pəncərə, tanış səkilər,
Dil açıb danışsa nə deyər bizə?..

***

Gözlədim gəlmədin, vaxt da daraldı,
Səma da qaraldı, yer də qaraldı,
Sandım ki, qış gəldi yeri qar aldı,
Şaxtalı qış olub dondurdun məni.

Buludlar döyüşdü, yer-göy laxladı,
Bir kədər dalğası məni haqladı,
Sənin gəlişini yalan saxladı,
Ürəyin demədi dilin deyəni.

Nə deyim, nə deyim, nə deyim sənə,
Qərq etdin ömrümü dumana, çənə,
Bir ürək nədir ki, qıymadın mənə,
Gözlərim hələ də axtarır səni.

SEVGİ NƏĞMƏSİ

Ay bənövşə duruşlum,
Ətir saçanım mənim,
Fikrim, hissim, xəyalım,
Məndən qaçanım mənim.

Yolunu gözləməkdən,
Ürəyim al qan olur.
Gizli gəlib-gedirsən,
Görüşün bir an olur.

Gülüşüylə könlümə
Məhəbbət gətirənim.
Sevgisiylə sevgimə
Əzəmət gətirənim.

Sənsiz sevən ürəyim
Heç qərar taparmı, de?
Ürəyimdə bitmisən,
Heç xəbərin varmı, de?

Vurğununam mən sənin
Məndən qaçanım mənim.
Ay bənövşə duruşlum,
Ətir saçanım mənim,

ƏMİQIZI
Ömür-gün yoldaşıma

Bəxtimizi açan-açdı, yazan-yazdı,
Bu qismətə gözmü yumaq, əmiqızı?
Səbəb nədi sevənlərdə sevgi azdı, -
Səadətdi qoşa yanmaq, əmiqızı.

İki ürək bir vuranda gün xoş olur,
Vay o gündən vurulduğun qəlb boş olur,
Məhəbbətsiz çarpan ürək, qəlb daş olur,
Duymaz olan olur qınaq, əmiqızı.

Sevgi yanar bir məşəldi odu sönməz,
Başa gələn dərd-bəladı çözələnməz,
Paltar kimi iynə-sapla gözələnməz,
Eşq-məhəbbət tutmaz yamaq, əmiqızı.

İlahidən gəlməyi var, gəldi, getməz,
Ürəklərdə yuva bağlar, izi itməz,
Toxum kimi səp duyğusuz qəlbə, bitməz,
Gerçəkliyi olmur danmaq, əmiqızı.

Demə qaldı ilk eşqimiz cığır, izdə,
Ülviləşib, bütövləşib yaşar bizdə,
O səadət çırağıdı evimizdə,
Nə sən qonaq, nə mən qonaq, əmiqızı.

Əməlimiz şölə saçsın qoy cahana,
Sinə gərək çətin anda sərt tufana,
Həsənlitək hazır ol hər imtahana,
Bu bir tale, bu bir sınaq əmiqızı.

1973

SƏNƏM SƏBAYELƏ

Nəğməli gecədən qalıb yadımda,
Şeir çağlayırdı qaynar qanında.
İlham pərisiydi - Sənəm adında,
Göylərdən enmişdi mələk donunda.

Özündə deyildi…, sətirləriylə
Sükutun özünü süst eləmişdi.
İlahi sözlərin ətirləriylə,
Hamını, hamını məst eləmişdi.

Qulaq kəsilmişdi söz adamları -
Sözün ümmanında süzdü bir sona.
Dedim söndürsələr yanan şamları,
Öz nuru, işığı bəs edər ona.

Əl verib ayrıldı…, görüş bitmişdi,
Ayrıla bilmirdim nəsə sehrindən.
Şairlə gözəli - qəribə işdi,
Ayırd edəmmədim biri-birindən…

2008

BU QIZIN

(Nəğmə)

Tanrım, necə göyçəkdir
Bu qızın, ay bu qızın.
Solmayan bir çiçəkdir
Bu qızın, ay bu qızın.

Ay sevən kəs, sevən kəs,
Yoxdur ona bir əvəz,
Görüşünə di tələs,
Bu qızın, ay bu qızın.

Sevmir kələk-küləyi,
Var arzusu, diləyi,
Bir günəşdi ürəyi,
Bu qızın, ay bu qızın.

Lalə, Nərgiz de, çağır,
Dinəcək ağır, ağır,
Üz-gözündən nur yağır,
Bu qızın, ay bu qızın.

Naz-qəmzəli, məzəli,
Azərbaycan gözəli,
Hər nazına dözməli,
Bu qızın, ay bu qızın.

GÖZƏLİN

Aygün üçün

Qismətini tanrı versin,
Mələkzadə, sən gözəlin.
Bağlamasın yolun, izin,
Nə bir duman, çən gözəlin.

Həyatından ilham alsın,
Öz əhdinə sadiq qalsın,
Kim istəməz, deyin, olsun,
Arzuları çin gözəlin?

Kənar gəzsin ondan qubar,
Gül qədrini nə bilər sar,
Şaxtası var, sazağı var,
Gülər üzlü, şən gözəlin.

Yar deyənə qəlbən yaram,
Dərd-sərinə yarıyaram,
Çətir tutub qoruyaram,
İsmətini mən gözəlin.

2004

ELİMİN GÜL QIZI

Sən həmən saçlı qız deyilsən demək,
Gözüm su içmədi bu əməlindən.
Qəlbimə yatmayan əməllərintək,
Əvəzsiz bir xəta çıxıb əlindən.

Əlimi daladı, bir qanqal kimi,
Belə üzülərmi hörük yerindən?
Doğranmış saçıntək sanki qəlbimi,
Ayaqlar altına tullamısan sən.

Hissimə, duyğuma əl uzanıb, əl,
Dəli istəyimə de, necə qıydın?
Sən niyə şübhəli göründün, gözəl,
Sən nəyə aldandın, sən kimə uydun?

Heç deyən oldumu, a qız, heyifdir?
Heç deyən oldumu, qızım, çaşmısan?
Yox, sənə modanın əli dəyibdir,
Qız ikən bir qədər oğlanlaşmısan.

Elimin gül qızı, neyləyərəm mən,
Qəlbin qəlbim kimi vurub yanmasa.
Sən həmən sevdiyim mələk deyilsən,
Qoşa hörüklərin dalğalanmasa…

1979

GÜNAHIM BÖYÜKDÜR

Günahım böyükdür, günahım böyük,
Sevgimi sevməzə sərf eyləmişəm,
Öz eşqim özümə yük olubdur, yük,
Qəm-kədər yemişəm, nəf eyləmişəm.

Toruna düşmüşəm şirin yalanın,
Məramı nə imiş o kam alanın?
Qoynunda yatmışam əfi ilanın,
Elə bilmişəm ki, kef eyləmişəm.

"Kor kimi sevmişəm", kor imiş gözüm,
Qənim kəsilmişəm özümə özüm,
Sozalıb alışmır ocağım, közüm,
Mən özüm-özümü məhv eyləmişəm.

Aləmi özünə güldürüb, getsin,
Adın ünvanımdan sildirib getsin,
Sağ ikən o məni öldürüb, getsin,
Ölümə bərabər səhv eyləmişəm.

ETİRAF

Vüsalə üçün

O qız dağlar laləsi,
Su sonası, mələkmiş.
O qız dolan bir bulud,
İlahi, nə kövrəkmiş!

Baxışından oxunur,
Soyuq baxışdan donur,
Həyat dolu işıq, nur,
Qəhər dolu ürəkmiş!

Tanrım, məni bağışla,
İslandım bir yağışla,
Qışla, ey könül, qışla,
Acı dilim şimşəkmiş!

Bir üz məndən dönəndə,
Mənəm yanan, sönən də,
Zərifliyin önündə,
Bir zəriflik gərəkmiş.

Dözüm qalmayıb məndə,
Gəzib dolanır gendə,
Hər könül küsdürəndə,
Həsənli gör nə çəkmiş!

1997

KÖNLÜM

Belə yanğı olmaz, belə od olmaz,
Günahsız odlara qalandı könlüm.
İllərlə çağlasa yenə durulmaz,
Saf bir çeşmə idi, bulandı könlüm.

Mən onu gözümün nuru bilirdim,
"Sevirəm" - deyəndə eşqə gəlirdim,
Qızılgül axtardım, qanqalı dərdim,
Aldandı, gör necə aldandı könlüm.

Çəkdim imtahana sevən hər kəsi,
Düşdü gözlərimdən bu yer kürəsi,
Yaşamaq həvəsi, yanmaq həvəsi,
Gen dünya başıma dolandı, könlüm.

Bilmədi qədrimi, oldu buz kimi,
Söndü gözlərimdə bir ulduz kimi,
Mən qız görməmişdim belə qız kimi,
Hardan bədəsilə calandı könlüm?

Duyğusuz ürəyə axmaq olarmı?
Sevgisiz bir gözə baxmaq olarmı?
Sevgiyə heç ləkə yaxmaq olarmı?
Alındı, satıldı, talandı könlüm.

Həsənli neyləsin, sevdin gülüncü,
Əl çək bu sevdadan, nə sın, nə inci,
Sevgisi xülyadan umma sevinci,
Aldığı nəfəs də yalandı, könlüm.

1976

KƏNDDƏ BİR GECƏ

Çayın öz səsi var, mehin öz səsi,
Dalmışıq gecənin sehrinə qoşa.
Məhəbbət qoxuyan bu yaz gecəsi,
Danışaq göz-gözə, verək baş-başa.

Düşün, ay sevgilim, düşünək, duyaq,
Gecə düşüncədir, gecə nağıldır.
Oxu, həzin-həzin nəğmə oxuyaq,
Könlüm pərvazlandı, fikrim dağıldı.

Danış şirin-şirin, gül şirin-şirin,
Aç, aç ürəyini gecə keçməmiş.
Aşiqi biz olaq bu gözəl yerin,
Güllər sübh şehini süzüb içməmiş.

Yatmayaq qoy ömrün bir gecəsini,
Ulduzlar yollara yağacaq indi.
Qatsın səsimizə ilbiz səsini,
Ay da bəxtimizə doğacaq indi.

1974

AŞIQ ZÜLFİYYƏYƏ

Nə xoş görüş - coşdu qanım, qaynadı,
Saz sinədə, əllər teldə oynadı,
Ay camalın elə bildim aynadı,
Qəlbdə sevgi, dodaqda bal, Zülfiyyə,
Telli sazı çal, belə çal, Zülfiyyə.

Zəngulənə, cəhcəhinə vurğunam,
Sarı simin ləhcəsinə vurğunam,
Cürə sazın xor səsinə vurğunam,
Könüllərdə beləcə qal, Zülfiyyə,
Telli sazı çal, belə çal, Zülfiyyə.

"Sarıtel" çal, ürəkləri şad eylə,
"Kərəmi" çal, Əslimizi yad eylə,
"Misiri" çal, Koroğlunu yad eylə,
Sal yağının bağrına xal, Zülfiyyə,
Telli sazı çal, belə çal, Zülfiyyə.

Xəyalımda dərə keçdin, dağ aşdın,
O saz sənə, sən o saza yaraşdın,
Pəri kimi meydan açdın, yarışdın,
El gözündə ucal, ucal, Zülfiyyə,
Telli sazı çal, belə çal, Zülfiyyə.

Sən aləmsən, elin varı-yoxusan,
Təzə-tərsən, bənövşətək qoxursan,
Qan düşməz ki, Həsənlidən oxusan,
Bizi qəmdən, kədərdən al, Zülfiyyə,
Telli sazı çal, belə çal, Zülfiyyə.

2010

İLK MƏHƏBBƏTİM

Alıb, dincliyimi əlimdən alıb,
Canımdan əzizdir ilk məhəbbətim.
Səsimi, nitqimi dilimdən alıb,
Dilsizdir, səssizdir ilk məhəbbətim.

Fikrimi, hissimi çəkib dərinə,
Təşnəyəm vurduğu zərbələrinə,
Ömrümün eşq adlı zirvələrinə,
Salınan ilk izdir ilk məhəbbətim.

Dönmərəm mən ondan lap dara çəkdir,
Bəxtimin yazında açan çiçəkdir,
Məni tufanında qərq edəcəkdir,
Dalğalı dənizdir ilk məhəbbətim.

Ömrümdən, günümdən deyildir itən,
Bir dağ laləsidir qəlbimdə bitən.
Bölün inam üçün ürəyimi tən,
Ordadır, təmizdir ilk məhəbbətim.

1969

ÇIX GET

Ərə getmək xətrinə ərə gedən və ər evini səbəb olmadan tərk edən təzə gəlinlərə.

Mübarək qədəmin dəyəndə evə,
Gəlin olduğunu duydunmu? Çıx get!
Ara qarışdırıb, ara vuranda,
Sənə dil verənə uydunmu? Çıx get!

Dil tapa bilmədin qaynana ilə,
İlk gündən səsindən səs düşdü elə,
Saymadın sayanı, hey qalxdın zilə,
Geri ayaq izi qoydunmu? Çıx get!

Ər evi - gor evi - uca tutardın,
Xoflanıb özündən fəryad qopardın,
Bu evdən, o evə xəbər apardın,
Sirrini aləmə yaydınmı? Çıx get!

Ayağı sayalı olmalı idin,
Bir evin dayağı olmalı idin,
Saf eşqin çırağı olmalı idin,
Olmayan sevgindən doydunmu? Çıx get!

Xoşmu ər evində üç ay qalmağın?
Müşkül işə döndü ana olmağın,
Dağıdıb bir evi, fikrə dalmağın
Səbəbi özünə aydınmı? Çıx get!

2003

"OYANAN XATİRƏLƏR" SİLSİLƏSİNDƏN

1.MƏN SƏNİN SEVGİNƏ "LAYİQ" OLMADIM

Mehriban baxışın getmir gözümdən,
Səni düşünürəm xəyala dalıb.
O son gün nə dedin çıxdım özümdən,
Qəlbimdə son sözün ağrısı qalıb…

…Eşitdim "Vağzalı" səsini gendən,
Sanma ki, atdandın xəbərsiz oldum.
Toy günü əlimi mən üzdüm səndən,
Fəqət için-için yandım, qovruldum.

Yer qopa, sən mənə dönməzsən bir də,
Eh, səni aparan yollar uzaqdı.
Bitmərəm sən gedib bitdiyin yerdə,
Daha aramızda əsən sazaqdı…

Geriyə qaytardı elçilərimi,
Üstümə güldürdü atan bir eli.
Sənə ər etdilər heç bildin kimi,
Gör kimə verdilər səni, ay dəli?!.

Günah məndə oldu desəm, inanma,
Bir ürək vermişdim, geri almadım.
Sən mənim sevgimə layiqdin, amma,
Mən sənin sevginə "layiq" olmadım.

2.HAYIF O GÜNLƏRƏ

Hayıf o günlərə, illərə hayıf,
Sevgiylə ballanan dillərə hayıf.
Hayıf gəzdiyimiz çölə, çəmənə,
Sovulan, sovrulan güllərə hayıf.

Dönüb nağıl oldu məktəb illəri,
Doğma kənd, dağ döşü, qızlar bulağı…
Düzərdim saçına bir-bir gülləri,
Sevgimə şahiddi o alma bağı?

Sən harda, mən harda, o yerlər harda,
Gör necə düşmüşük diyarbadiyar.
Didərgin sevgimiz azdı yollarda,
Biz duya bilməsək onu kim duyar?

Yadına düşürmü görüş yerləri,
Bir an kirpiyini sıxıb xatırla.
Adına yazdığım o şeirləri,
Saxlardın, bilirəm, baxıb xatırla.

Sevgisiz bir dəli qəddini əydi,
Nədən ilk eşqindən bezdin, yoruldun?
Eh, gülüm, o sevgi ölməməliydi,
Gör kimi sevirdin, gör kimin oldun…

3.BƏNÖVŞƏ ƏTRİ

Bənövşə ətrini duydum saçında,
Xəyal qanadına götürdü məni.
Vaxt vardı bənövşə ətir saçanda,
Gəzərdim kol dibin, "Səsli dərə"ni.

Dərib qoxlayardım bənövşələri,
Təpərdim gözümə onları bir-bir.
Kimə saxlayardım bənövşələri,
Kimi əzizlərdim xatirimdədir.

Bənövşə ətirli o kənd qızını,
Yamanca qorudum özüm özümdən.
Dərib kəndimizin dan ulduzunu,
Bir gün apardılar, necə dözdüm mən?

Deyəsən gizlicə sevirdim onda,
Elə sən boydaydı boyu-buxunu.
Mən onu görürəm sənin simanda,
O sevgi qaçırır hərdən yuxumu.

Saçları saçına, gözü gözünə,
Yanağı qızaran yanaqlarına.
Dili bal dilinə, sözü sözünə,
Dodağı oxşardı dodaqlarına.

Hanı o doğmaca yox olan sevgi,
Bənövşə qoxuyan, bənövşə dərən?
Bu vaxtsız-vədəsiz doğulan sevgi,
O vaxtsız-vədəsiz sevgimi görən?!..

4.MƏNİM BƏXTİM GƏTİRMƏYİB HEÇ ZAMAN

Nə atadan, nə anadan yarıdım,
Əmi, dayı kölgəsində yatmadım.
Öz yaramı öz əlimlə sarıdım,
Arzuların göyçəyinə çatmadım.

Arzum məni yola çəkdi, bəxt tinə,
Tək mən oldum gözlərinə qan daman.
Çoxlarının günəş doğdu bəxtinə,
Mənim bəxtim gətirməyib heç zaman.

Şeş istəsəm yek verəndi zərim də,
Daş çatdadır, daşdan keçir hər işim.
Məni ötüb əyləşdilər yerimdə,
Nə verəndi bu dünyaya gəlişim?

Aldandığım gah ümiddi, gah güman,
Bu həyata suallarım hikmətim.
Yollarıma hardan enir bu duman?
Ağzıgünə qalasıdı qismətim.

Qınamıram, sevdiyim qız, səni də,
Bir oyundu, sevgi deyil səninki.
Tapmamışdan itirərsən məni də,
Bəxt sarıdan gətirməyir mənimki.

Bu ömür ki, bu tale ki, məndə var,
Uğurlu bir səmtə düşməz güzarım.
Daş-qayaya çıxasıdı gor evim,
Yerlə-yeksan olasıdı məzarım.

5.GECİKƏN ETİRAF

Yenə havalandı havalı könlüm,
Gərək çıxmayaydın bir də qarşıma.
Səndən bəla görən vəfalı könlüm,
Sandım ki, tuş gəldi qəfil qurşuna.

Başımın üstündə oynadı şimşək,
Ayağım altında yer yandı sanki.
Sənin nə vecinə eh, səni görcək,
Bu dünya başıma fırlandı sanki.

Yumaz günahını dəryalar belə,
Qurduğun bir evi yıxıb gəlmisən.
Gətirmə, keçmişi gətirmə dilə,
Sən ki, mənim üçün çoxdan ölmüsən.

Yadımda üzümə çırpılan qapı,
Duydum, kimliyini mən onda duydum.
Çəkil gözlərimdən ürəyim qopur,
Doydum, mənə olan sevgindən doydum.

Gecikən etiraf de nəyə yarar,
Ağlamaq acizlik əlamətidir.
Sinəmdə döyünən bu ürək ki, var,
Mənim yox, özgənin əmanətidir.

Qəlbinin mən idim bir vaxt hakimi,
İndi mənim üçün müəmma, sirsən.
Səhvi bağışlanmaz bir kitab kimi,
Gözlərim önündə vərəqlənirsən.

1975

RÜBAİLƏR

***

Aqilləri dindir artsın hikmətin,
Nadanı aqilə döndərmək çətin.
Yaltağın səmtini dəyişmək asan,
Yelbeyin əsridir şanın, şöhrətin.

***

Atalar düz deyib "tökülən dolmaz",
İşini düz tutan saçını yolmaz.
Özünə cavabdeh olmayan kəsdən,
Vətənə, xalqına cavabdeh olmaz.

***

Bacar bu dünyada qalıb, gedəsən,
Ömrü uduzmayıb qalib gedəsən.
Həyat ümmanında bu bathabatda,
Əbədi bir lövbər salıb gedəsən.

***

Başdasan, millətlə baş-başa yaşa,
Elin ümidini gəl vurma daşa.
Eldənsən, elini, yurdunu düşün,
Vətən səhnə deyil, qurma tamaşa.

***

Müdriklər, dahilər düşünər dərin,
Açılar hər sirri xəzinələrin.
Amma açılmayan sirlər də vardır,
Fövqündə durmaqda qərinələrin.

***

İnsansan insan ol, nə qul, köləsən,
Elə et dövrünə uyğun gələsən.
Haqqın dərgahına ucalarsan bil,
Ömrünü haqq işə fəda eləsən.

***

Ən uca kürsümüz - mülk, minbərimiz,
Quran kitabımız - müşk-ənbərimiz.
Bəşər övladının nur ziyasıdır,
Əvəzsiz dinimiz, peyğənbərimiz.

***

Təkdir Allahımız, Allahı tanı,
Qula döndərəmməz insan insanı.
Şeytana daş atıb Kəbə evində,
Nəfsinin qurbanı etmə vicdanı.

***

Hər kəsə nəsibmi ömrü bac almaq,
Tanrıya qovuşub daim var olmaq,
Ruhlar dünyasının möcüzəsidir
Yaddaşa köç edib, yaddaşda qalmaq.

***

Mən necə ömrümü de verim yelə,
Dünyadan əl üzüb gedimmi, lələ?
Mənim qaynar təbim, ruhumdur, ey dost,
Dərdimi bu sayaq gətirir dilə.

***

Zamanı bir kimsə əyləyə bilməz,
"Mən çərxi-dövranam" - söyləyə bilməz.
Unutma, Tanrıdan özgə bir kimsə,
Dünyaya sahiblik eyləyə bilməz.

***

Əqlimiz zülmətə saçmırsa işıq,
Çamırda boy atıb, bitən qamışıq.
Hələ şimal, cənub bataqlığından,
Cəhalət torundan qurtulmamışıq.

***

Vətən kimə doğma, kiminə qərib,
Sanma bu bölgünü tanrı göndərib.
Həqiqət azlığın əlində aciz,
Az olan çoxluğu qula döndərib.

***

Gözü tox olana tanrı köməkdir,
Acgözə bu dünya qida, yeməkdir.
Özünü hamıdan ağıllı saymaq,
Hamıdan ağılsız olmaq deməkdir.

***

Sonunmu, ay dolub, boşalan dünya,
Baharı pozulub qış olan dünya?
Özünə qalsaydı yaranmazdın heç,
İnsan əməlinə tuş olan dünya.

***

"Vətən", "Vətən" deyib, ey dil-dil ötən,
Qoyma sərhəddindən keçə hər yetən.
Gecə də, gündüz də keşiyində dur,
Keçilməz sərhəddən başlanır Vətən.

***

Olub tariximi qaralayanlar,
Bu tayı, o taydan aralayanlar.
Mənim ürəyimi parçalayıbdır,
Mənim vətənimi paralayanlar.

***

Bizdən sevgi umur açılan çiçək,
Öncə yaradandı əlçatmaz gerçək.
Tək onun naminə bəşəriyyəti,
Ərzi təhlükədən qoruyaq gərək.

***

Çəkdiyim əzablar hədərmiş, könül,
Yaşamaq ölümdən betərmiş, könül.
Bu sirli dünyaya gəlib-getməyim,
Olmaya qəzavi-qədərmiş, könül?!

***

Güldüm gülünclərə - ləli dedilər,
Əlsizə əl tutdum - zəli dedilər.
Düzlükdən danışdım əliəyrilər,
Məni qınadılar - dəli dedilər.

***

Mat qaldım sevgidən doyan gözələ,
Arzumu gözümdə qoyan gözələ.
Baş qoyub sinəmin üstə yuxlayan,
Sirrimi aləmə yayan gözələ.

***

"İtib ədəb-ərkan, ənənə" dedi,
Sordum kimliyini, "sənə nə" dedi.
Millətin dərdindən danışdı, amma,
"Millətdən mənə nə, mənə nə" dedi.

1984-85

DÖRDLÜKLƏR

***

Hamını ələkdən keçirir bir-bir,
Bu dünya dediyin sınaq meydanı.
Sirrini heç kəsə verən deyildir,
Varmı varlığından baş açan, hanı?

***

Başsız küləklər də qapını döyməz,
Bu həyat dediyin səsinə karsa.
Yüz illik xatirə bir ana dəyməz,
Çiçək arzuların sazağı varsa.

***

Yaşamaq, ömür-gün olmayır asan,
Həyat oyun deyil, sən də oyuncaq.
Ömrünü, gününü eylə bir dastan,
Arzular sənինçün açırsa qucaq.

***

Özündən müştəbeh olma heç zaman,
Səndən öndə bil ki, min-min sən də var.
Ağlını səbrinə cala, ey insan,
Məqamda müdriklər verər son qərar.

***

Qollu-budaqlı ol, qol-qanad qırma,
Kölgə sala bilməz kölgəsiz gəvən.
Hissinə qapılıb ruhunu yorma,
Ağlına arxalan, ağlına güvən.

***

Ömrünə yamaqdı vəzifə, çin də,
Bir an da qədərdən xəbərsiz olma.
Qoşa əyləşən var çiyinlərində,
Mələklə şeytanı qarışıq salma.

***

İpək qəlbimizin kövrəkliyindən,
Dərdimiz göllənib çıxıbdır dizə.
Yüyrək ağlımızın gödəkliyindən,
Haqq olur, nə olur, haqq olur bizə.

***

Yolu zirvələrə gedib çatanın,
Özü bir tarixdi, izi silinməz.
Varını vətəndən üstün tutanın,
Nə yeri, nə yurdu, goru bilinməz.

***

Nərə balığıtək tora düşübdür,
Ağzına su alıb susmaqda dünya.
İnsan əməlindən zora düşübdür,
Udduğu zəhəri qusmaqda dünya.

***

Titrəyər ürəyim bulaq səsindən,
Gül açan çöl-çəmən üzümə gülər.
Məsum kənd qızının qəhqəhəsindən,
Burnuma bənövşə qoxusu gələr.

***

Bitməyin yolumda, ey soyuqqanlar,
Qanıma susayıb az sıxın məni.
Ay ölü vücudlar, ay ölü canlar,
Dərdimlə baş-başa buraxın məni.

***

Bəlkə yazmayıram könlüm deyəni,
Nəğməm süzülməyir dildən-dodaqdan.
Bir qüvvə sabaha səsləyir məni,
Bir qüvvə sözümü yetirir haqdan.

***

Yağıştək ömrümə, günümə yağan,
Canımdan ayrılan sözlər varımdı.
Mənim şeirlərim ruhumdan doğan,
Dünyaya cavabsız məktublarımdı.

***

Məni yaşamağa qoymur qəm dağı,
Mənə dinclik vermir çəkdiyim qubar.
Dolub-boşalıram buludsayağı,
Dəniztək qabarıb, çəkilməyim var.

***

Sinəni açdınsa dərdə, ələmə,
Sözlərin olmasın amanat, şair!
Çox da bel bağlama "qızıl qələmə",
Qızıltək sözlər seç yaz, yarat, şair!

***

Könlüm bir duyğunun əsiri olsa,
İçimi od-alov yandırıb yaxar.
Yazmaram bir misra özümə qalsa,
Çıxmasa canımdan söz, canım çıxar.

***

Mən açıq qoymuşam elə qapımı,
Təki söz anlayan bir ürək olsun.
Şairlər döyməyir hələ qapımı,
İl üstə il gəlir, mübarək olsun.

1976

QƏZƏLLƏR

***

Məqsədim yanmaq idi, əfsus ki, oddan küsmüşəm,
Saldı dildən adımı, dildarım, addan küsmüşəm.

Gah bezib biganədən, gah aşinadan qaçmışam,
Həm qohum-əqrabadan, həm də ki, yaddan küsmüşəm.

Hər nə dadsam zəhrimardır, hər nə dadsam dadı yox,
Dadlı nemət bilmərəm, ağzımda daddan küsmüşəm.

Bir quş idim qıy vuran, dağdan-dağa pərvaz edən,
Uçmuram bağdan-bağa, sınıq qanaddan küsmüşəm.

Çıxmısan yar xətrindən, ey Həsənli, bəlkə də,
Aşiqin canan çıxarmaz məncə yaddan, küsmüşəm.

***

Eyləmisən könlümü bərbad sən, ey zalım qızı,
Mən peşiman oldum, oldun şad sən, ey zalım qızı.

Özgəni dost bilmisən, yar bilmisən biganəni,
Tək məni bildin özünçün yad sən, ey zalım qızı.

Bir günahmı işlətdi, Haqq bəxtimə yazdı səni?
Eyləmirsən əl tutub imdad sən, ey zalım qızı.

Şah ki, bildim mən səni oldum qulun, qan ağladım,
Bu qulu eyləmirsən azad sən, ey zalım qızı.

Bunca naz-qəmzə nə Leylada, nə də Şirində var,
Hardan etdin bunları icad sən, ey zalım qızı.

Zülümkarsan, çox müsəlmanları edibsən bütpərəst,
Zülümkarlıq içrə qoydun ad sən, ey zalım qızı.

Həsənli heç eşqini aləmə car çəkməz idi,
Eylədin məcbur, qıl di fəryad sən, ey zalım qızı.

***

Hey dərd-qəm bağlayıram, sevgilim atmış məni də,
O vəfasız gözəl əğyarına satmış məni də.

Atəşimdə yananın dönmüş üzü könlümdən,
Buza dönmüş ürəyi tonqala çatmış məni də.

Dil töküb ovsunladı könlümü sevdası ilə,
Gördü bəxtim uyuyub, bildimi yatmış məni də?

Məgər azmış dəli-divanələri eşqində?
Qatmış həm onlara o xar başıbatmış məni də.

Ey Həsənli, bu vəfasızları xəlq etdi isə,
Niyə bilməm yaradan Tanrı yaratmış məni də?

***

Düşmüşəm elə dərdə ki, onun çarəsi yoxdur,
Eşq yollarının mən kimi avarəsi yoxdur.

Ey yar, sinəmi parçalamış atdığın oxlar,
Bu gizli bir oxdur ki, onun yarəsi yoxdur.

Qəlbim evi zülmət gecədir başdan-ayağa,
Tər eşqimizin ulduzu, sitarəsi yoxdur.

Bəxtim qaradır söyləsəm, əlbəttə, yalandır,
Heç rəngdə çərxin də bu cür qarəsi yoxdur.

Həsənli, didəndən bəs qədər qan axıdılmış,
Yardan da bu qanın niyə kəffarəsi yoxdur?

***

Rəvamı qalasan can sıxan anlar əlində?
Olarsan oyuncaq, gülüm, nadanlar əlində.

Dözə bilməz könlüm əğyarlardan gələn qəmə,
Qoyma rüsvay olam bədxah, yamanlar əlində.

Bəs deyilmi qəmim, məlhəm ol ağlar könlümə,
Keçməkdə hər günüm ah-amanlar əlində.

Aşiqim tək sənsən inan, vəfalı nigarım,
Yaşarmı heç aşiq söylə, gümanlar əlində.

Bahar ömrümüzə de xəzan, ya qış nə lazım,
Əğyarı da qıymam qala tufanlar əlində.

Həsənli haqq yolda qoymaz səni gözdən uzaq,
Azarsan sən onsuz qatı dumanlar əlində.

***

Ulu tanrım, nə üçün çəkirsən hey dara məni?
Neyləmişəm sənə mən, etdin bəxti qara məni?

Verdiyin dərdə şükür, çəkəsiyəm uf demədən,
Çarə qıldıqca həmən edirsən biçara məni.

Nədən yasaq eyləmisən bu həyatın ləzzətini,
Qoparıb aləmimdən aparırsan hara məni?

Bir eşqin dəlisiydim, əqlimi aldın başımdan,
Ürcah etdin, dilbilməz, daşqəlbli bir yara məni.

Ey mənim dərd verənim, göndərsənə dərmanını,
Kərəminə möhtacam, salmısan azara məni.

Üz tutub yol gəlirəm o görünməz dərgahına,
Həsənliyəm, qeyb olsam nə axtar, nə ara məni.

***

O küsəyən yarə deyin xəstəsini yad eləsin,
Gəlsin baxım gül üzünə, ovqatımı şad eləsin.

O gedəli yolu, izi yağış yuyub, sel aparıb,
Geri dönsün, gəlişiylə hər yeri abad eləsin.

Dərdimə bir çarə qılsın o şəfalı baxışıyla,
Uçurtmağa qırğı kimi qolları qanad eləsin.

Can evimi bərbad görüb Həccə səfər edəmmədim,
Şəfa verib, təkrar məni o, özünə ad eləsin.

Desin mənə könlündəki eşq odunu söndürəni,
Düşəsiyəm ayağına böylə bir icad eləsin.

Ümidim var sağalmağa, o yar geri dönsə əgər,
Qoymaram könlümü bir də o yarla inad eləsin.

Bağışlayıb Həsənlini, alsın sitəmlər əlindən,
Bu sevdalar düşgününü yataqdan azad eləsin.

***

Dönmüş bir xatirəyə eşq ilə ötən dəmlər,
Yorğun düşən qəlbimə məlhəmdir yanan şəmlər.

Yatmaram gecələri, gündüzüm qarə gəlmiş,
Eşq yanar odmuş desəm inanmaz ağlı kəmlər.

Dərdim aşır başımdan, bir sevda xəstəsiyəm,
Köklənməz daha həmən sevdayla dolu simlər.

Yar gedəli susmaqda, çıxmır səsi sazımın,
Çalmaqda saz yerinə könlümü üzgün qəmlər.

Öz sevgim özümə qəm, bir bəla olmuş, ya rəbb,
Yazılmış qismətimə dili zəqqum hərəmlər.

Düz sözmüş, gözəllərin vəfası heç yox imiş,
Həsənli saf gözəlin sorağında vərəmlər.

MÜNDƏRİCAT

Ön söz əvəzi.....3

DÖVRAN HARA BİZİ SÜRÜYÜR İNDİ?!

Azərbaycan.....6
Zəngəzurun.....7
İndi.....8
Özümüzük.....9
İnsan.....10
Şuşa həsrəti.....11
“Bir kövrək duyğudan, səmimi hissdən”.....12
Allah.....13
Həsrətimin sonu var.....14
Bilməz.....15
Bəzi millət vəkillərinə.....16
Çıraqqala.....17
Bu eldə.....18
Bizim yerlər belə olmur.....20
Məni.....21
Kefimi soruşdun.....22
Gözüm dost axtarır.....23
Qaranquş yuvası.....25
Əli Kərimə.....26
Qoru ürəyini.....27
Əllərim.....28
Şəhərli şair dostuma.....29
Üçtəpədə.....31
Qatar Mehridən keçir.....32
Qubadlım.....33
Göründü.....35

Düşdüm.....36
Dayım.....37
Ata.....39
Kişi qeyrəti.....40
Oğul.....41
Eloğlu.....42
50 yaşıma.....43
İndi.....45
Salam.....47
Vətən sənə oğul deyir.....49
Əbülfəz Elçibəyə.....50
Bal əhvalatı və iki şeirin tarixçəsi.....51

GÜNAHLAR ÇOXALIR, MƏRHƏMƏT İTİR

Gərək.....55
Şurnuxunun meşəsi.....56
Allah adamı.....58
Mənə dikbaş deyənlərə.....59
Laqeydlik.....60
Dünya düzələrdi.....61
Kişilər.....62
Kişi.....64
Var.....65
"Alim" oldu.....66
Tanımaq istəsən.....67
Bir redaktora.....68
Poeziya gecəsində.....69
Bacıoğlu.....73
İndi.....74
Düşüb.....75
Şəhərli oğlanlar, şəhərli qızlar.....76
İki rolda.....78

"Hər oturub duran həmən".....79
Utanmır.....80
Nail kişi.....81
Papiros.....82
Görürəm.....83
Oxuyan tapılmır beynəlmiləli.....85
"İlan kimi çalır məni".....87
Soyuq insan.....88
Olmur.....89

DONUR TƏBƏSSÜMÜM DODAQLARIMDA

İnsafın olsun.....91
De.....92
Gedirsən.....93
Neyləyim.....94
Nədəndir.....95
Necə unudum səni.....96
Sənin sevgi məktubun.....97
Bilmədim.....98
Yadıma düşürsən.....99
Sevgi məktubu.....100
İstərəm.....101
O məktublar.....102
Demə.....103
Sənin ad günün.....104
"Gözlədim gəlmədin, vaxt da daraldı"…….....105
Sevgi nəğməsi.....106
Əmiqızı.....107
Sənəm Səbayelə.....108
Bu qızın.....109
Gözəlin.....110
Elimin gül qızı.....111

Günahım böyükdür.....112
Etiraf.....113
Könlüm.....114
Kənddə bir gecə.....115
Aşıq Zülfiyyəyə.....116
İlk məhəbbətim.....117
Çıx get.....118

"Oyanan xatirələr" silsiləsindən

1.Mən sənin sevginə "layiq" olmadım.....119
2.Hayıf o günlərə.....120
3.Bənövşə ətri.....121
4.Mənim bəxtim gətirməyib heç zaman.....122
5.Gecikən etiraf.....123

Rübailər 124
Dördlüklər.....128
Qəzəllər.....132

Ələsgər Həsənli
(Həsənov Ələsgər Qaraş oğlu)

TANIMAQ İSTƏSƏN
(Şeirlər)

Mətbəənin direktoru: ***Mirfazil Əliyev***
Dizayner: *Ruhiyyə Məmmədova*
Korrektor: *İlahə Ələyeva*
Operator: *Vüsalə Qəribova*
Texniki redaktor: *Mehriban Səfərova*
Qiyməti razılaşma yolu ilə

BİLİK
Qürurumuz müştəri məmnuniyyətidir...

Poliqrafiya Mərkəzi.
Yığılmağa verilib: 05.11.2011.
Çapa imzalanmışdır: 07.03.2012.
Kağız formatı: 84x108. Ofset çapı 1/16.
Fiziki ç.v. 9. Tiraj: 500.
Ünvan: Sumqayıt şəh., 13-cü mk/r, Niyazi küçəsi,
E-mail: derelevez-bilik@rambler.ru
bilik-2008@mail.ru
Tel.: (012) 408 39 51; (018) 656 50 42.